RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 101 (9556) 16 may 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Qüdrət rəmzi

Bu gün Qarabağda, Şərqi Zəngəzurda həyata keçirilən işlər Azərbaycan dövlətinin sülh niyyətinin, regionumuzu davamlı inkişaf, rifah və xoşbəxtlik məkanına çevirmək arzusunun ifadəsidir. Azərbaycan dövləti bu regionu yenidən qan çanağına döndərmək istəyənlərin fitnə-fəsadlarına imkan verməyəcək. Prezident İlham Əliyev Şuşa sakinləri ilə görüşündə yeni reallıqlarla bağlı qətiyyətli mövqeyini, mesajlarını bir daha lazımi ünvanlara çatdırdı: "Fransa və Amerika bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır".

Ermənistanda revanşistlərin baş qaldırdığını, Fransanın Ermənistana öldürücü silahlar verdiyini xatırladan dövlət rəhbərimiz onu da bəyan etdi ki, Fransanın verdiyi silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin: "Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik".

Bu gün Qazaxın 1990-cı və 1992-ci illərdə işğal edilmiş torpaqlarının bir güllə belə atılmadan bizə qaytarılması, delimitasiya, demarkasiya tədbirlərinin ölkəmizin şərtləri əsasında həyata keçirilməsi tarixi qələbəmizin növbəti zəfərlərimizlə davam etdirildiyini, Azərbaycan Prezidentinin sarsılmaz qətiyyətinin xalqımızı yeni möhtəşəm uğurlara apardığını göstərir.

Bu qətiyyət Prezident İlham Əliyevin ən qüdrətli çağlarına yetirdiyi Azərbaycan dövlətinin gücünə, beynəlxalq nüfuzuna, ölkə rəhbərimizin gələcəyə strateji baxışına əsaslanır. Bu gün regionun inkişaf reallıqlarını yaradan məhz Azərbaycan dövlətidir, bölgəmizin gələcəyinin müəllifliyi də məhz ölkəmizə aid olacaq.

→ 5

## Tolerantlıq Azərbaycan cəmiyyətinin demokratik birgəyaşayış normasıdır

### "Transformativ dialoq: sürətlə dəyişən dünyada sülh naminə alyansların qurulması" mövzusunda Qlobal Dialoq Forumunun iştirakçılarına

Hörmətli Forum iştirakçıları!

Sizi Kral Abdullah bin Əbdüləziz Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Lissabon şəhərində təşkil etdiyi Qlobal Dialoq Forumunun öz işinə başlaması münasibətilə salamlamaqdan məmnunluq duyuram.

Qloballaşan və sürətlə transformasiya olunan müasir dünyada son dərəcə mürəkkəb ictimai-siyasi proseslər baş verir, etnik-dini zəmində münaqişələr və qütbləşmələr, irqi ayrı-seçkilik, dini ekstremizm, ksenofobiya kimi təhlükəli təzahürlər müşahidə edilir. Beynəlxalq təhlükəsizliyi və bəşəriyyətin əmin-amanlığını təhdid edən belə hallara qarşı mübarizədə dünya dinlərinin sülh və həmrəylik çağırışlarına, sivilizasiyalararası dialoqa, dünyəvi və dini ittifaqların birgə səylərinə ciddi ehtiyac vardır.

Müxtəlif din və inanc mənsublarını, dini liderləri, vətəndaş cəmiyyəti nümayəndələrini və siyasətçiləri bir araya gətirən, insanlar arasında ədaləti, sülhü, sosial-mənəvi vəhdəti təşviq edən KAICIID tərəfindən böhranlı vəziyyətlərdə sülh quruculuğu, inklüziv cəmiyyət və ətraf mühitlə bağlı aktual problemlərin müzakirəyə çıxarılmasını təqdirəlayiq hesab edirəm.

Fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanda heç vaxt etnik-dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Tolerantlıq və multikultural dəyərlər Azərbaycan cəmiyyətinin demokratik birgəyaşayış normasıdır. Bakıda keçirilən ənənəvi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum, Dünya Dini Liderlərinin Sammiti kimi nüfuzlu tədbirlər mədəniyyətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır. Biz inanırıq ki, etnik-mədəni müxtəliflik ayırıcı xətt deyil, əksinə, xalqlar arasında ahəngdar inkişafa xidmət edən unikal sərvətdir.

Bu ilin noyabrında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində nəzərdə tutulmuş dünya dini liderlərinin zirvə görüşü, əminəm ki, qlobal iqlim dəyişmələri problemlərinin həllində siyasət və din xadimlərinin həmrəyliyinin vacibliyini bir daha təsdiq edəcəkdir.

Hazırda planetimizin müxtəlif bölgələrində, fərqli coğrafiyalarda baş verən geostrateji ziddiyyətlər beynəlxalq təhlükəsizlik arxitekturasının dəyişməkdə olduğunu göstərir, ikitərəfli və çoxtərəfli münasibətlərdə yeni yanaşmalar tələb edir. Müasir çağırışlar dinin cəmiyyət həyatında və beynəlxalq münasibətlərdə rolunun düzgün müəyyənləşdirilməsi, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməsi və sivilizasiyalararası əməkdaşlığın gücləndirilməsi zərurətini qarşıya qoyur.

Bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərin vaxtında qarşısının alınması üçün hər kəs öz məsuliyyətini dərk etməli, dövlət rəhbərlərinin və dini liderlərin bütün səy və imkanları narahat dünyamızın firavan, sabit və dayanıqlı gələcəyi naminə səfərbər olunmalıdır.

İnanıram ki, KAICIID-in yüksəksəviyyəli Qlobal Forumu konstruktiv müzakirələr ruhunda keçəcək, beynəlxalq sülhə və təhlükəsizliyə, müxtəlif tərəflər arasında qarşılıqlı anlaşmaya, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa əhəmiyyətli töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, Forumun işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2024-cü il*

## Prezident İlham Əliyev Slovakiyanın Baş nazirinə qarşı törədilmiş sui-qəsdi sərt şəkildə pisləyib



← Post

Ilham Aliyev
@presidentaz

I am shocked and appalled by the assassination attempt on Prime Minister Robert Fico. I strongly condemn this attack. My thoughts are with Prime Minister Fico, his family, and Slovak people. I wish him the soonest recovery.
@ZuzanaCaputova @SlovakiaMFA

7:12 PM · May 15, 2024 · 2,064 Views

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Slovakiya Respublikasının Baş naziri Robert Fitsoya qarşı sui-qəsd törədilməsini sərt şəkildə qınayıb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu barədə "X" sosial şəbəkəsindəki rəsmi səhifəsində paylaşım edib.

Paylaşımda deyilir: "Baş nazir Robert Fitsoya qarşı sui-qəsd cəhdi məni dərindən sarsıtdı. Mən bu hücumu qəti şəkildə pisləyirəm. Baş nazir Robert Fitsonun, onun ailəsinin və slovak xalqının yanındayıq. Ona tezliklə şəfa tapmasını arzulayıram".

## Azərbaycanın Zəfəri Minsk qrupunu da tarixə qovuşdurdu

### 28 ildə missiyasını yerinə yetirməyən və məşğul ola biləcəyi hər hansı məsələ qalmayan ATƏT-in bu təsisatı hüquqi baxımdan da ləğv edilməlidir

2020-ci il Vətən müharibəsində, eləcə də antiterror əməliyyatları zamanı Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq, ərazi bütövlüyünü və suverenliyini təmin edərək işğala son qoydu. Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsi də tarixdə qaldı. Göründüyü kimi, ölkəmiz Minsk qrupunun üç onillik ərzində həll edə bilmədiyi münaqişəyə hərb meydanında son qoydu.

O da faktdır ki, əgər bu qurum öz mandatına uyğun fəaliyyət göstərmiş olsaydı, nə 44 günlük müharibəyə, nə də 23 saatlıq antiterror tədbirlərinə lüzum olacaqdı.

Bütün bunlara görə də üzərinə götürdüyü missiyanı yerinə yetirməyən Minsk qrupunun fəaliyyətinə də de-fakto son qoyuldu, ikilistandartlı təsisatın bölgədə həll edəcəyi hər hansı münaqişə, problem qalmadı.

→ 6

## Yenidən qurulan Xankəndi-Şuşa-Laçın yolu üzərində 4 tunel, 2 körpü inşa olunacaq

Xankəndi-Şuşa-Laçın avtomobil yolunun yenidən qurulması layihəsi üzrə tikinti işləri davam etdirilir. Yeni tunellər inşa olunacaq, sərt döngələr ləğv ediləcək, nəticədə yol 9,2 kilometr qısalacaq.



Yolda aparılan tikinti işləri barədə AZƏRTAC-a məlumat verən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nümayəndəsi Qəzənfər Səfərov bildirib ki, ikinci texniki dərəcəyə uyğun layihələndirilən yolda iki hərəkət zolağı olacaq. Mövcud yolun uzunluğu 43,2 kilometrdir. Yeni layihə üzrə yolun uzunluğu isə 34 kilometrdir.

Qəzənfər Səfərovun sözlərinə görə, yolda ümumi uzunluğu 2380 metr olan 4 tunel, ümumi uzunluğu 160 metr olan 2 körpü, 55 ədəd müxtəlif ölçülü dairəvi boru, 18 ədəd düzbucaqlı boru, 45 kilometrə yaxın drenaj kanalları inşa olunacaq.

Layihənin gələn ilin sonunadək yekunlaşması nəzərdə tutulur.

## Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycana dövlət səfərinə gəlib



**Mayın 15-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

# Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi" (bundan sonra - Mərkəz) publik hüquqi şəxs yaradılsın.

2. Müəyyən edilsin ki, Mərkəz "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tibb müəssisələrinin akkreditasiyası, tibbi xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi üzrə tədbirlər görülməsi, habelə tibb müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişafı ilə bağlı dəstək xidmətləri göstərilməsi sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

3. Mərkəzin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Mərkəzin yenidən təşkili və ləğvi;

3.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.2.1. Mərkəzin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

3.2.2. Mərkəzin idarəetmə orqanlarının yaradılması;

3.3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə:

3.3.1. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, tibb müəssisələrinin akkreditasiyası ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. iki ay müddətində:

4.2.1. Mərkəzin nizamnaməsini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2.2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən Mərkəzin inzibati bina ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

5.1. Mərkəzin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.2. Mərkəz dövlət qeydiyyatına alındıqdan sonra onun strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) bir ay müddətində təsdiq etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 253 QƏRAR Bakı şəhəri, 13 may 2024-cü il

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yenidəntəşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan İdman Akademiyasına çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Azərbaycan İdman Akademiyasının Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi bu Qərar qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan İdman Akademiyasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Daxili işlər naziri xidmətə qəbulla bağlı növbəti sıra baxışı keçirib

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 15-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.






Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, sıra baxışında DİN-in onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 226 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onlardan da 25-i Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Ədliyyə nazirinin Tovuzda vətəndaş qəbulunun vaxtı dəyişdirilib

Ədliyyə naziri Fərid Əhmədovun Şəmkir, Tovuz və Gədəbəy rayon sakinləri ilə keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişdirilib.

Bu barədə Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Qəbul mayın 20-də keçiriləcək.

Vətəndaşlar qəbula Şəmkir regional ədliyyə idarəsi (ünvan: Şəmkir şəhəri, Heydər Əliyev prospekti 2, əlaqə telefonu +994 2230-5-82-50), habelə Ədliyyə Nazirliyinin 012-510-10-01 (daxili nömrə: 2104) nömrəli telefonları və contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə yazıla bilərlər.

Həmçinin vətəndaşların rahatlığı üçün qəbula elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə vətəndaşlar Ədliyyə Nazirliyinin elektron xidmətlər portalı vasitəsilə qəbula yazıla bilərlər. Həmin şəxslərə qəbulun keçiriləcəyi ünvan və saat barədə əvvəlcədən məlumat veriləcək.

# Sosial xidmət müəssisələrində əlilliyi olan 342 uşaq daimi dövlət himayəsində yaşayır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisələrində hazırda 342 uşaq daimi dövlət himayəsində yaşayır. Onlardan 109-u qız, 233-ü oğlandır.



Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində həmin sosial xidmət müəssisələrində uşaqların normal yaşayışı və səmərəli reabilitasiya tədbirlərinə cəlb edilmələri üçün müasir tələblərə uyğun şərait yaradılıb.

Həmin müəssisələrdə əlilliyi olan uşaqlara müəyyən edilmiş rejimə və fərdi iş planına uyğun xidmətlər göstərilir, onların abilitasiyası və reabilitasiyası həyata keçirilir. Uşaqların yaşı və sağlamlıq imkanları nəzərə alınaraq ilkin biliklərə və peşə bacarıqlarına yiyələnmələri, fiziki tərbiyəsi və sair istiqamətlərdə də işlər aparılır.

Qeyd edək ki, nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin 1 saylı sosial xidmət müəssisəsi Bakının Mərdəkan qəsəbəsində, 2 saylı sosial xidmət müəssisəsi isə Abşeron rayonunun Saray qəsəbəsində yerləşir.

# Milli Məclisin Sədri Sahibə Qafarova Sinqapur Prezidenti ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Sinqapur Respublikasının Prezidenti Tarman Şanmuqaratnam ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Sinqapurun dövlət başçısına çatdırıb.

Sinqapur Prezidenti Tarman Şanmuqaratnam minnətdarlığını bildirərək, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Prezident Tarman Şanmuqaratnam bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladaraq, Azərbaycanla Sinqapur arasında isti münasibətlərin mövcud olduğunu söyləyib. O, bir sıra sahələrdə uğurlu əməkdaşlıq təcrübəsinin olduğunu qeyd edib. Əldə olunan müsbət nəticələrin əlaqələri daha da inkişaf etdirmək üçün səyləri birləşdirməyə stimul verdiyi vurğulanıb.

Görüşdə siyasi təmasların, qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli münasibətlərin inkişafında müstəsna rolu qeyd edilib. Həmçinin iqtisadi əlaqələrin ölkələr arasında ikitərəfli münasibətlərin əsas komponentlərindən biri olduğu vurğulanıb, ticari-iqtisadi əlaqələrin hazırki səviyyəsinin daha geniş əməkdaşlıq üçün yaxşı əsas yaratdığı bildirilib.

Söhbət zamanı parlamentlərin qarşılıqlı fəaliyyətinin ölkələrimiz arasında münasibətlərin daha da dərinləşdirilməsində vacib rolu diqqətə çatdırılıb. Bu sahədə müntəzəm təmasların, dialoq və fikir mübadiləsinin əhəmiyyəti qeyd edilib. Sahibə Qafarova bu səfərin Azərbaycan Milli Məclisi Sədrinin Sinqapura ilk səfəri olduğunu diqqətə çatdıraraq, səfər çərçivəsində keçirdiyi görüşlər haqqında məlumat verib və bu görüşlərin, aparılan müzakirələrin münasibətlərimizin inkişafına müsbət töhfələr verəcəyinə inamını ifadə edib.

Görüşdə parlamentlərarası əlaqələr çərçivəsində beynəlxalq parlament təşkilatlarında da əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Həm Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, həm də ASEAN Parlamentlərarası Assambleyasının əməkdaşlıq baxımından yaxşı platformalar olduğu vurğulanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova hazırda regionda mövcud olan vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh danışıqları barədə də məlumat verib.

Söhbət zamanı bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında da söhbət açılıb. Sinqapur Prezidenti ölkəsinin bu tədbirdə güclü şəkildə təmsil olunacağını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarovanın Sinqapurun davamlılıq və ətraf mühit naziri ilə görüşü

Milli Məclisin Sədri Sahibə Qafarova Sinqapur Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin davamlılıq və ətraf mühit naziri Qreys Fu ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu səfərin Azərbaycan Milli Məclisi Sədrinin Sinqapura ilk səfəri olduğu diqqətə çatdırılaraq, bunun ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inam ifadə olunub.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluq bildirilərək, iki ölkə arasında mövcud imkanların münasibətlərimizin daha da dərinləşməsinə şərait yaratdığı diqqətə çatdırılıb.

Görüşdə bu ilin noyabrında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında geniş fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova Bakının evsahibliyi ilə təşkil olunacaq bu mühüm beynəlxalq tədbirə hazırlıqla bağlı görülən işlər barədə məlumat verib.

Qeyd olunub ki, COP-29-un ölkəmizdə keçirilməsi Azərbaycana göstərilən böyük etimad və hörmətdir. Ölkəmiz bu mühüm tədbirə evsahibliyi etməklə bağlı böyük məsuliyyəti dərk edir və tədbirin ən yüksək səviyyədə təşkil olunması üçün bütün lazımi addımlar atılır. Vurğulanıb ki, iqlim fəaliyyətini inkişaf etdirmək və məqsədlərimizə nail olmaq üçün bütün tərəflərin iştirakı vacibdir.

Spiker Sahibə Qafarova məlumat verib ki, Azərbaycan Milli Məclisi də COP29 çərçivəsində keçiriləcək tədbirlərə fəal qoşulub. O, Milli Məclisin Parlamentlərarası İttifaqla birlikdə təşkil edəcəyi Parlament iclası haqqında da məlumat verib. Söhbət zamanı Sinqapur nümayəndələrinin də bu tədbirdə iştirakı məsələləri nəzərdən keçirilib.

Qreys Fu Azərbaycanın COP29 ilə bağlı olduqca aktiv fəaliyyət göstərməsini yüksək qiymətləndirib. Nazir kiçik ada dövlətlərinin iqlim dəyişikliklərinə qarşı mübarizəsi, bu istiqamətdə görülə biləcək tədbirlər barədə fikirlərini bildirib. O qeyd edib ki, iqlim dəyişikliklərindən ən çox əziyyət çəkə biləcək regionlardan biri Cənub-Şərqi Asiyadır. Ona görə də iqlim dəyişiklikləri ilə bağlı problemlər Sinqapur hökumətinin diqqət mərkəzindədir. Nazir ölkəsinin dekarbonizasiya sahəsində ciddi iş apardığını bildirib.

Spiker Sahibə Qafarova qarşı tərəfi həmçinin Azərbaycanın "yaşıl enerji" istiqamətində gördüyü işlər, həyata keçirdiyi layihələr, Qarabağ və Şərqi Zəngəzurda gedən yenidənqurma və bərpa işləri, "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin icrası, ölkəmizdə alternativ enerji mənbələrindən səmərəli və məqsədyönlü istifadə istiqamətində atılan addımlar barədə də məlumatlandırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Avropa Parlamentinin deputatı Şuşaya səfər edib

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, mayın 15-də Şuşa şəhərinə gələn deputat Xaviyer Narta şəhərin tarixi, işğal dövründəki vəziyyəti və Şuşada Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında aparılan quruculuq işləri, şəhərdəki tarixi abidələrin bərpası, nəzərdə tutulan planlar, Şuşa sakinlərinin öz doğma şəhərlərinə qayıdışı prosesinə başlanıldığı barədə məlumat verilib.



Qonaq burada nümayəndəliyin inzibati binasında, Şəhər Meydanında, Vaqifin məqbərəsində, Cıdır düzündə olub, Şuşanın Qala divarlarını seyr edib. Qonağa məlumat verilib ki, qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxmış, canları və qanları bahasına Şuşanı işğaldan azad etmişlər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirilməsi məkanına çevrilib.

Avropa Parlamentinin deputatını Milli Məclisin Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri Tural Gəncəliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Belarusun Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb





Mayın 15-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Belarus Respublikasının Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Belarus arasında münasibətlərin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub. Ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan əlaqələrin formalaşmasında və inkişafında dövlətlərimizin başçılarının səmimi dostluq münasibətlərinin mühüm rol oynadığı qeyd edilib.

Həmçinin bildirilib ki, son illər ərzində iki dövlət arasında əlaqələr bir çox istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə uğurla inkişaf edir, beynəlxalq və regional təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq həyata keçirilir. Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə qısa müddət ərzində genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını bildirib. Prezident Administrasiyasının rəhbəri "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq görülən işlər nəticəsində artıq keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmağa başladıqlarını və bu prosesin qarşıdakı müddətdə daha da sürətlənəcəyini vurğulayıb.

Görüşdə işğaldan azad edilmiş ərazilərdə də iki ölkə arasında əməkdaşlıq üçün geniş imkanların olduğu qeyd edilərək, bu istiqamətdə fikir mübadiləsi aparılıb.

Sonda Samir Nuriyev İqor Petrişenkoya "Qarabağ işğaldan əvvəl və sonra" kitabını hədiyyə edib.

## Ceyhun Bayramov belaruslu həmkarını bölgədəki mövcud reallıqlar barədə məlumatlandırıb

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov mayın 15-də ölkəmizdə səfərdə olan Belarusun xarici işlər naziri Sergey Aleynik ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov və həmkarı Sergey Aleynik arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan və Belarus arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər, Belarus Prezidentinin ölkəmizə planlaşdırılan dövlət səfərinə hazırlıq məsələləri, habelə regional vəziyyət müzakirə olunub.

Tərəflər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 ildən artıq müddət ərzində iqtisadiyyat, ticarət, emal sənayesi, kənd təsərrüfatı, nəqliyyat, turizm, əczaçılıq, yüksək texnologiyalar, humanitar və sair istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlıq gündəliyinin formalaşmasını məmnunluqla qeyd ediblər. Xüsusilə, iqtisadi sahədə əlaqələrin genişləndirilməsində yaxın günlərdə növbəti iclasının keçiriləcəyi iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın əhəmiyyətli rol oynadığı diqqətə çatdırılıb. İki ölkənin liderləri arasında intensiv təmasların mövcud siyasi dialoqun inkişafında müstəsna rolundan bəhs edən C.Bayramov Belarus Prezidentinin ölkəmizə dövlət səfərinin, habelə səfər çərçivəsində müxtəlif sahələr üzrə sənədlərin imzalanacağının əhəmiyyət kəsb etdiyini bildirib. Mövcud strateji tərəfdaşlıq xarakterli ikitərəfli münasibətlərin regional və beynəlxalq çoxtərəfli platformalar, o cümlədən BMT, ATƏT və MDB çərçivəsində uğurla davam etdirildiyi bildirilib.

Qarşı tərəf həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu istiqamətdə əməkdaşlıq imkanları barədə ətraflı məlumatlandırılıb. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimiz, bu çərçivədə aparılan danışıqlar prosesi və görülən təşkilati tədbirlərdən bəhs edən Ceyhun Bayramov sədrliyimiz müddətində tərəfdaşlarımızın dəstək və aktiv iştirakçılığına əhəmiyyət verdiyimizi diqqətə çatdırıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan Müstəmləkə altında olan ölkələrə və xalqlara müstəqillik verilməsi ilə bağlı Xüsusi Komitənin tədbirində təmsil olunur

Azərbaycan BMT-nin Müstəmləkə altında olan ölkələrə və xalqlara müstəqillik verilməsi haqqında bəyannamənin icrası ilə bağlı yaradılmış Xüsusi Komitəsinin (C-24) regional tədbirində təmsil olunur.




AZƏRTAC xəbər verir ki, bu komitənin iclasına müstəqillik tarixində ilk dəfə qatılan Azərbaycanı Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin əməkdaşı Fərid Soltanov təmsil edir.

Tədbirdə çıxış edən F.Soltanov Azərbaycanın 2019-2023-cü illərdə sədrlik etdiyi, hazırda isə "Troyka"nın üzvü olduğu Qoşulmama Hərəkatında fəal iştirakından və verdiyi töhfələrdən söz açıb. Bu xüsusda ölkəmizin hərəkata sədrliyi çərçivəsində çoxtərəflilik prinsiplərini təşviq etdiyini, habelə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradılmasının təşəbbüskarı olduğunu xatırladıb.

O, ölkəmizin XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürlərinin artmasından narahatlığını tədbir iştirakçılarının diqqətinə çatdıraraq bildirib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nüfuzlu beynəlxalq kürsülərdə bu mövzunu mütəmadi olaraq qaldırması, ədalət və beynəlxalq hüquq naminə müstəmləkəçiliyin tamamilə ləğv olunması məsələsini təşviq etməsi keçmişdə və hazırda müstəmləkə şəraitində yaşayan xalqlar tərəfindən rəğbətlə qarşılanıb".

Azərbaycan rəsmisi xatırladıb ki, dekolonizasiya istiqamətində son illər ölkəmizin atdığı addımlar müstəmləkəçilikdən azad olmağa çalışan xalqlarda, eləcə də müstəqilliklərini əldə etmələrinə baxmayaraq, hələ də neokolonializmdən əziyyət çəkən dövlətlərdə və ərazilərdə, Fransanın dənizaşırı ərazilərində böyük inam yaradıb. Kolonializmə qarşı institusional və nəticəyönümlü mübarizə aparmaq məqsədilə Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşü çərçivəsində iştirakçıların təklifi ilə Bakı Təşəbbüs Qrupu (BTQ) adlı beynəlxalq QHT yaradılıb. Kolonializmin və neokolonializmin ağır fəsadları, müstəmləkə altında yaşayan xalqların fundamental hüquqlarının kobud şəkildə pozulması halları, insanların azadlıqlarının məqsədli şəkildə məhdudlaşdırılması, məqsədyönlü assimilyasiya siyasəti Azərbaycan dövlətinin dekolonizasiya sahəsində siyasəti nəticəsində dünya ictimaiyyətinin diqqətinə çatdırılır, BMT, Qoşulmama Hərəkatı və digər mötəbər tribunalarda qaldırılır.

F.Soltanov Azərbaycan Respublikası Prezidentinin Bakı Təşəbbüs Qrupunun 2023-cü ilin oktyabr və noyabr aylarında "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" və "Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf" mövzularında təşkil etdiyi beynəlxalq konfransların iştirakçılarına ünvanladığı müraciətlərə istinad edərək, onların BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədləri kimi yayıldığını diqqətə çatdırıb.

Sonda C-24 Komitəsi, o cümlədən komitəyə üzv ölkələr kolonializmə və neokolonializmə qarşı mübarizədə Bakı Təşəbbüs Qrupu ilə əməkdaşlığa dəvət edilib.

## Şimali Kipr Türk Cümhuriyyətində Azərbaycan Beynəlxalq Mədəniyyət Mərkəzinin təntənəli açılışı olub

Mayın 15-də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Girnə şəhərində Azərbaycan Beynəlxalq Mədəniyyət Mərkəzinin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, mərkəzin açılışı təşəbbüsünü Azərbaycan-ŞKTC Dostluq Cəmiyyəti irəli sürüb.

Tədbirdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Baş nazir Ünal Üstəl, parlamentlərarası əlaqələr üzrə Azərbaycan-ŞKTC və Türkiyə-ŞKTC işçi qruplarının üzvləri, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri, jurnalistlər iştirak ediblər.

Mərasim iştirakçıları Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycan, ŞKTC və Türkiyə uğrunda həyatlarını qurban vermiş şəhidlərin xatirəsini yad ediblər.

Azərbaycan-ŞKTC Dostluq Cəmiyyətinin rəhbəri Orxan Həsənoğlu mərkəzin açılışını ŞKTC və Azərbaycan xalqlarının yaxınlaşmasına növbəti mühüm töhfə adlandırıb. O, yaxın günlərdə Lefkoşada Heydər Əliyevin abidəsinin ucalacağına ümid etdiyini bildirib.





Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Cavid İsmayıl xatırladıb ki, dünyanın 15 ölkəsində Dövlət Komitəsinin dəstəyi ilə açılmış Azərbaycan Mədəniyyət mərkəzləri fəaliyyət göstərir. "Əminəm ki, ŞKTC-dəki mərkəz Azərbaycanın beynəlxalq mədəniyyətlərarası əlaqələrin inkişafında daha bir halqa olacaq", - deyə Cavid İsmayıl bildirib.

Parlamentlərarası əlaqələr üzrə Azərbaycan-ŞKTC işçi qrupunun rəhbəri Cavanşir Feyziyev Azərbaycan-ŞKTC Dostluq Cəmiyyətinin fəaliyyətini yüksək qiymətləndirib. Deputat Azərbaycan tərəfinin ŞKTC ilə əlaqələrin, o cümlədən mədəniyyət və təhsil sahələrində inkişafına hazır olduğunu bildirib.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və Baş nazir Ünal Üstəl də mərasim iştirakçılarına müraciət ediblər.

Kipr türklərinin liderləri İlham Əliyevin türk xalqlarının yaxınlaşmasına yönəlmiş siyasətini yüksək qiymətləndirib, Bakı ilə dialoqun inkişafına hazır olduqlarını vurğulayıblar.

Daha sonra proqrama uyğun olaraq Ümummilli Lider Heydər Əliyevin büstünün açılışı oldu. Tədbir iştirakçıları mərkəzin açılışı şərəfinə qırmızı lenti kəsdilər. "Azərbaycan bizim qəlbimizdə" adlı foto-sərginin açılışı oldu. Daha sonra "Türkiyə-Azərbaycan-ŞKTC əlaqələrinin gələcəyi" mövzusunda konfrans keçirilib.

Qeyd edək ki, Girnədəki Azərbaycan Beynəlxalq Mədəniyyət Mərkəzinin binasında tədbirlərin, o cümlədən sərgilərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Heydər Əliyev irsinin tədqiqi mərkəzi, kitabxana, incəsənət emalatxanası, Tədqiqatlar və Robotlaşdırılmış Kodlaşdırma Mərkəzi, Azərbaycanın milli rəqsləri dərnəyi, türk dilinin öyrənilməsi şöbəsi fəaliyyət göstərir. Çoxsaylı kütləvi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan 300 nəfərlik meydança da burada yerləşir.

# "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri mükafatlandırılıb



Mayın 15-də Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə təşkil edilmiş "Ən yaxşı təqdimat" müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Cövdət Hacıyev adına 3 nömrəli 11 illik musiqi məktəbinin şagirdlərinin ifasında Dövlət himni səsləndirilib.

Daha sonra "Ən yaxşı təqdimat" müsabiqəsinə dair videoçarx nümayiş etdirilib.

Çıxış edən Baş nazirin müavini Əli Əhmədov böyük ənənəyə malik müsabiqənin 20 ildən artıqdır ki, məktəblilər arasında keçirildiyini söyləyib. O bildirib ki, müsabiqə qaliblərinin bilik və bacarıqları sayəsində qazandıqları bu mükafat onların həyatında əhəmiyyətli yer tutmaqla yanaşı, gələcək hədəflərinin müəyyənləşməsində də mühüm rol oynayacaq. Elm və təhsil naziri Emin Əmrullayev nazirlik tərəfindən şagirdlər arasında təşkil olunan müsabiqələr barədə tədbir iştirakçılarına məlumat verib. Məktəblilər arasında keçirilən respublika fənn olimpiadalarının əhəmiyyətinə toxunan nazir bildirib ki, bu olimpiadalar şagirdlərimizin gələcəkdə dünyanın nüfuzlu ali təhsil müəssisələrində oxumalarına imkan yaradır.

Şagirdlərin təkcə müxtəlif fənlər üzrə bilik və bacarıqlara yiyələnməsi deyil, eyni zamanda öz tarixlərini, milli kimliklərini öyrənməsini vacib sayan Emin Əmrullayev "Qərbi Azərbaycana qayıdış" olimpiadasını da bu qəbildən olan müsabiqələrdən biri kimi qiymətləndirib.

Sonda Qarabağda bərpa edilən təhsil ənənələrinə toxunan Emin Əmrullayev müsabiqə qaliblərini Qarabağ Universitetinin tələbəsi olaraq görmək arzusunu da dilə gətirib.

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Ulu Öndər Heydər Əliyevin hər zaman Azərbaycan gəncliyinə önəm verdiyini söyləyib. Bildirib ki, gənclərin qabaqcıl universitetlərdə təhsil almaları baxımından ölkəmizdə böyük işlər görülüb. Tahir Budaqov cari ildə məktəblilər arasında "Yaşıl dünya naminə intellektual müsabiqə"nin keçiriləcəyini diqqətə çatdırıb.

Daha sonra Ulu Öndər Heydər Əliyev haqqında videoçarx nümayiş etdirilib.

"Ən yaxşı təqdimat" müsabiqəsinin nəticələri əsasında 7 nəfər I, 11 nəfər II, 16 nəfər III dərəcəli diplomla təltif olunub və onlara hədiyyələr təqdim edilib. Tədbirdə Azərbaycan Milli Konservatoriyasının nəzdində Respublika İncəsənət Gimnaziyası şagirdlərinin və 3 nömrəli Respublika Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəqs qrupunun ifasında musiqi nömrələri səsləndirilib, rəqslər nümayiş etdirilib.

Qeyd edək ki, "Ən yaxşı təqdimat" müsabiqəsi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının ildönümü ilə əlaqədar Ulu Öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işinin daha da gücləndirilməsi məqsədilə həyata keçirilir.

Bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş respublika səviyyəsində təşkil olunan müsabiqəyə bütün regionlardan 2 944 şagird qatılıb. Hər bir rayon və şəhərdən müəyyən olunmuş kvotaya əsasən 90 şagird komissiya tərəfindən qiymətləndirilərək ölkə mərhələsinə seçilib.

Müsabiqə Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Elm və Təhsil Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında keçirilib.

# Narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində KİV tərəfindən görülən işlər müzakirə edilib



Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun iştirakı ilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri (KİV) tərəfindən həyata keçirilən tədbirlərin müzakirəsi məqsədilə Nazirlər Kabinetində növbəti görüş keçirilib.

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupundan AZƏRTAC-a verilən məlumata görə, görüşdə bu ilin yanvar-mart ayları ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə ilə bağlı kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən işlərin nəticələri və qarşıda duran vəzifələr müzakirə edilib.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov çıxış edərək bildirib ki, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə səmərəliliyin artırılması, təbliğat və maarifləndirmə işlərinin daha da gücləndirilməsi və davamlılığının təmin edilməsi sahəsində zəruri tədbirlər görülür. Hüquq-mühafizə orqanları müasir telekommunikasiya və informasiya imkanlarından istifadə edərək narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işini gücləndirib, qanunsuz dövriyyədən külli və xüsusilə külli miqdarda müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə olunaraq məhkəmə hökmləri əsasında məhv edilib. Eyni zamanda ümumilikdə aşkar olunmuş cinayətlərin sayının, qanunsuz dövriyyədən müsadirə edilən narkotik vasitələrin və psixotrop maddələrin miqdarının, həmçinin narkotik maddələrin yüksək dozasının qəbulu nəticəsində ölənlərin sayının azaldığını bildirib.

Bununla yanaşı, qeydiyyatda olan narkotik istifadəçilərinin sayı çox olan şəhər və rayonlar üzrə statistik göstəricilər təhlil edilib, istifadə ilə bağlı faktların çoxalmasından narahatlıq ifadə edilib, bu cür halların qarşısının alınması üçün antinarkotik təbliğatın müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla təşkil edilməsi, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması sahəsində kütləvi informasiya vasitələrinin sistemli şəkildə müvafiq işlərin görülməsini davam etdirməsinin vacibliyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə Audiovizual Şuranın sədri İsmət Səttarov bu ilin yanvar-mart ayları ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərə dair aparılan monitorinqin nəticələri barədə məlumat verib, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Vüqar Əliyev, Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, İctimai Televiziyanın baş direktoru Balakişi Qasımov, "Xəzər TV MMC"nin baş direktoru Murad Dadaşov, "Azad Azərbaycan Teleradio Yayım Şirkəti"nin rəhbəri Azər Xəlilov və "Real" Təhlil İnformasiya Mərkəzinin direktor müavini Mahir Məmmədov irəli sürülən tövsiyələri nəzərə alaraq, narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə kütləvi informasiya vasitələri tərəfindən daha geniş işıqlandırılmasının əhəmiyyəti barədə çıxış ediblər.

Bu il aidiyyəti dövlət qurumu tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə ümumilikdə 10 min 546 dəfə yayımlanması, media subyektlərində ekspertlərin iştirakı ilə 55 xüsusi verilişin təşkil edilməsi və narkomanlığın zərəri ilə bağlı müəllif süjetlərinin hazırlanması təmin olunub.

Görüşün yekunu olaraq, narkomanlığa qarşı təbliğat işinin aparılmasında onlayn medianın və sosial şəbəkələrin imkanlarından geniş istifadə edilməsi, psixoaktiv maddələrdən istifadənin risk amilləri, insan sağlamlığına zərərli təsiri və problemin mahiyyətini ifadə edən xüsusi verilişlərin hazırlanmasının davamlılığının təmin edilməsi və sayının artırılması, o cümlədən həmin verilişlərə həkim-narkoloqların cəlb edilməsi, narkotik istifadəçilərinin sayı çox olan şəhər və rayonlar üzrə jurnalist araşdırmalarının aparılması, aidiyyəti dövlət qurumları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın daha da gücləndirilməsi, həmçinin qeyri-hökumət təşkilatlarına uyğun layihələr üzrə ayrılan qrantlar hesabına effektiv və təsirli yeni sosial çarxların hazırlanması, onların kütləvi informasiya vasitələri ilə geniş işıqlandırılması ilə əlaqədar müvafiq tövsiyələr verilib və qərarlar qəbul edilib.

# Rusiya Federasiyası sülhməramlı kontingentinin missiyasının başa çatmasına həsr olunmuş təntənəli mərasim keçirilib





Rusiya Federasiyası sülhməramlı kontingentinin missiyasının başa çatmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin, eləcə də Rusiya Federasiyasının Müdafiə Nazirliyinin sülhməramlı kontingentinin, Rusiyanın Azərbaycandakı səfirliyinin nümayəndələri, hərbi qulluqçular və media nümayəndələri iştirak ediblər.

Qonaqlar Rusiya Federasiyasının sülhməramlı kontingentinin Qarabağ iqtisadi rayonu ərazisində fəaliyyətini əks etdirən fotosərgi ilə tanış olduqdan sonra fəxri kürsüyə dəvət olunublar və mərasimin proqramı elan edilib.

Tədbirdə əvvəlcə həlak olan hərbi qulluqçuların xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Dövlət himnləri hərbi orkestrin müşayiəti ilə ifa olunub.

Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev 2020-ci il 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında imzalanmış bəyanata əsasən Qarabağ iqtisadi zonasında müvəqqəti yerləşdirilmiş kontingentin fəaliyyəti haqqında danışıb. Baş Qərargah rəisi Azərbaycan Respublikasının və Rusiya Federasiyasının dövlət başçıları arasında əldə olunan razılığa əsasən fəaliyyətini vaxtından əvvəl dayandıraraq ölkə ərazisindən çıxarılan sülhməramlı kontingentin bütün heyətinə sülhün və sabitliyin rifahı naminə xidmətlərinə görə minnətdarlığını bildirib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Daha sonra Rusiya Silahlı Qüvvələri Quru Qoşunlarının Baş Komandanının birinci müavini, Quru Qoşunlarının Baş Qərargah rəisi general-polkovnik Nikiforov Yevgeniy Valeriyeviç çıxış edib.

Çıxışlar bitdikdən sonra Azərbaycan və Rusiya müdafiə nazirlərinin əmrləri ilə təltif olunan hərbi qulluqçulara medallar təqdim olunub, rəsmi qonaqlar arasında hədiyyə mübadiləsi baş tutub.

Tədbirin sonunda Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin yaradıcı kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim olunub.

# Sülhməramlıların Qarabağı tərk etməsi tezliklə yekunlaşacaq

## Bu, Azərbaycan və Rusiyanın münasibətlərindəki qarşılıqlı anlaşmanın və strateji tərəfdaşlıq səviyyəsinin göstəricisidir

Dünən Xocalıda Rusiya Sülhməramlı Kontingentinin Azərbaycanın Qarabağ bölgəsindən çıxarılmasına həsr olunmuş mərasim keçirilib. Tədbirdə Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin yüksəkrütbəli hərbçiləri iştirak ediblər.

Hələ ötən il oktyabrın 4-də Rusiya xarici işlər nazirliyinin rəsmisi Mariya Zaxarova qeyd etmişdi ki, Rusiya sülhməramlılarının Qarabağda qalma müddəti Azərbaycanla birgə razılaşdırılaraq müəyyən ediləcək. Həmin çıxışdan o qədər də çox vaxt keçmədən Azərbaycan və Rusiya dövlət başçılarının əldə etdiyi razılığa əsasən, sülhməramlı missiyanın vaxtından əvvəl fəaliyyətini dayandırmasına qərar verildi. Əlbəttə ki, bu, Azərbaycan-Rusiya münasibətlərinə heç bir mənfi təsir etmir, əksinə, münasibətlərin daha da gücləndirilməsini şərtləndirir. Çünki sülhməramlıların ərazilərimizdən çıxması iki ölkə rəhbərinin qərarına əsasən həyata keçirilir, burada heç bir hərbi komponent yoxdur. Bununla da antiazərbaycançı şəbəkənin cəfəng fikirləri, uydurma iddiaları da iflasa uğradı. "Sapı özümüzdən olan baltalar" 3 ildir Şanlı Zəfərimizdən deyil, sülhməramlıların heç vaxt Azərbaycan ərazilərindən çıxmayacaqlarından danışaraq ara qarışdırmaq istəyirdilər. Amma baş verən proseslər bir daha onların mənfur planlarını alt-üst etdi.

Dünən Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov jurnalistlərə açıqlamasında bildirib ki, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına cavab olaraq başladılan genişmiqyaslı əks-həmlə əməliyyatı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün müddətində uğurla başa çatdırılıb. Vətən müharibəsindən sonra Azərbaycan Respublikası, Rusiya Federasiyası və Ermənistan Respublikasının liderləri arasında imzalanmış üçtərəfli Bəyanatın müvafiq bəndinə uyğun olaraq Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları fəaliyyətə başlamışdı. 2023-cü ilin sentyabr ayında Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən lokal xarakterli uğurlu antiterror tədbirlərindən sonra artıq bu missiyanın da fəaliyyətinə ehtiyac qalmayıb: "Sülhməramlı kontingentin vaxtından əvvəl missiyasının başa çatdırılması və Azərbaycan ərazisini tərk etməsindən dərhal sonra Müdafiə Nazirliyinin müvafiq göstərişinə uyğun olaraq sülhməramlı kontingentin silah və texnikasının, şəxsi heyətinin Azərbaycan ərazisindən çıxarılması üçün zəruri texniki və logistik dəstək göstərilir". Anar Eyvazov bildirib ki, Rusiya sülhməramlılarının Azərbaycan ərazisini tərk etməsi prosesi hazırda davam edir və yaxın vaxtlarda yekunlaşacaq.

Qeyd edək ki, Rusiya kontingenti bir motoatıcı briqadadan ibarət idi və bu briqadanın tabeliyində iki tabor mövcud olub. Bu taborlardan birinin qərərgahı Ağdərədə, ikincisininki isə Xankəndiyə yaxın ərazidə yerləşmişdi. Sülhməramlıların tərkibinə gəlincə, burada 1960 rusiyalı hərbçi fəaliyyət göstərirdi. Onların kiçik və iriçaplı silahları, 90 zirehli transportyor, 380 ədəd avtomobil və xüsusi texnikası var idi. Onların hamısı ərazilərimizdən çıxarılır.

Ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsindən sonra artıq sülhməramlıların hansısa fəaliyyətinə ehtiyac qalmayıb. Azərbaycan heç vaxt Rusiyaya "təcili regionu tərk et" kimi bəyanatlar da verməyib. Onların 2025-ci ilin noyabrına qədər Azərbaycan ərazisində qalma imkanları mövcud idi. Rusiya hərbçilərinin vaxtından əvvəl getməsi Moskva və Bakının ən yüksək səviyyədə siyasi razılığa gəldiyini bir daha göstərdi. Bu, artıq öz təsdiqini tapıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 9-cu görüşünün yekunları üzrə mətbuat açıqlaması

**15 may 2024-cü il**

2024-cü il mayın 15-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın doqquzuncu görüşü keçirilib.

Görüşün gedişində komissiyalar onlar tərəfindən qəbul edilmiş 2024-cü il 19 aprel tarixli 8-ci görüşün Protokoluna uyğun olaraq görülmüş işləri müzakirə edib və Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olmuş hüquqi cəhətdən əsaslandırılan respublikalararası sərhədə uyğunlaşdırılması məqsədilə bilavasitə Bağanıs Ayrım (AR) - Bağanis (ER), Aşağı Əskipara (AR) - Voskepar (ER), Xeyrimli (AR) - Kirants (ER) və Qızılhacılı (AR) - Berkaber (ER) yaşayış məntəqələri arasında sərhəd xəttinin hissələrinin SSRİ SQ Baş Qərargahının 1979-cu ildə növbətçilik prosedurunu keçmiş 1976-cı il tarixli topoqrafik xəritəsinə uyğun olaraq yerdəki geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi nəzərə alınmaqla birgə tərtib olunmuş Protokol-təsvirini razılaşdırıblar.

Görüşün yekunu olaraq müvafiq protokol imzalanıb. Növbəti görüşün keçirilməsi tarixi və yeri işçi qaydada razılaşdırılacaq.



# Qüdrət rəmzi

**Şuşa milli varlığımızın ifadəsi, qəlbimizdə xüsusi yeri olan müqəddəs və əziz məkandır. Şuşa sevgisi bu illər ərzində hər bir dünya azərbaycanlısının mənəvi varlığının ayrılmaz parçasına çevrilib. Bu, həm də tarixi yurdumuzun qələbə rəmzimiz olması ilə bağlıdır. Şuşa şəhəri bu torpaqların əzəli sakinləri olan azərbaycanlıların Qarabağın mərkəzindəki möhtəşəm imzasıdır. Keçmişlə bağlı saxta miflər uydurmaqda, gözlərinə görünən, qulaqları eşidən nə varsa öz adlarına çıxmaqda "mahir" olan ermənilər neyləsələr də, azərbaycanlıların Şuşadakı tarixi izlərini silməkdə həmişə aciz qalıblar. Bu mənada Şuşa bizim özünütəsdiqimizdir. Bu şəhəri biz adlandırmışıq, biz qurub yaratmışıq.**

Bir faktı xatırlatmaq yerinə düşər ki, ötən əsrin 70-ci illərində Şuşa şəhəri ilə bağlı verilən quruculuq qərarları bu unikal məkanın inkişafına ikinci nəfəs vermişdi. O illərdə Azərbaycana rəhbərlik edən Ümummilli Lider Heydər Əliyevin Şuşa sevgisi tükənməz idi. 1970-ci illərdə bu yurdun abadlıq işlərinə, inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq-bərpa tədbirləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bütün bunlar bir tərəfdən Şuşanın unikallığından, füsunkar gözəlliyindən, Ümummilli Lider Heydər Əliyevin bu şəhərin tarixi keçmişinə ruhən bağlılığından, orada yaşayıb-yaratmış şəxsiyyətlərimizin mənəvi irsinə ehtiramından irəli gəlirdi, digər tərəfdən isə Ulu Öndər Şuşanı müxtəlif vaxtlarda baş qaldıran əsassız erməni iddialarına qarşı alınmaz mənəvi qala kimi görürdü. Əsrlər əvvəl güclü sərkərdələr belə, Şuşanı ala bilməyiblər. Bu, tarix, bu, reallıqdır!

Qələbəmizdən sonra azad yurdlarımızda geniş quruculuq işləri başlandı. Azərbaycan bununla göstərdi ki, erməni vandallarından fərqli olaraq bu yerlər bizə dağıntı, xarabalıq kimi deyil, məhz inkişaf məkanı kimi lazımdır. Ermənilərin 30 ilə yaxın müddətdə daşını daş üstə qoymadıqları yurdlarımıza yenidən həyat qayıdır. Dövlətimiz torpaqlarımızı işğaldan azad etdiyi kimi qısa zamanda dirçəltmək əzmini də sübuta yetirir. Bərpa-quruculuq prosesi mədəniyyət paytaxtımız olan Şuşa şəhərində xüsusilə sürətli şəkildə aparılır.

Bu il mayın 8-də həyatımızda daha bir mühüm tarixi hadisə baş verdi. Mədəniyyət paytaxtımız olan Şuşa şəhərinin ilk sakinləri 32 illik ayrılıqdan sonra doğma yurdlarına köçüb yeni mənzillərində yerləşdilər. Qısa müddətdə Şuşada sakinlər üçün tikilmiş, görkəmi, şəhərin tarixi irsinə uyğun memarlıq üslubu ilə gözoxşayan yaşayış kompleksi dövlətimizin daha bir uğur rəmzinə çevrildi. Ordumuzun gücü ilə torpaqlarımızı işğaldan azad etmiş, Azərbaycan dövlətinin ərazi bütövlüyünə, suverenliyinə nail olmuş Müzəffər Ali Baş Komandan İlham Əliyev azad yurdlarımızın dirçəldiləcəyi ilə bağlı verdiyi sözləri də tutdu və bunun üçün böyük imkanlar da yaratdı. Ordumuzun irəlilədiyi şəhərlərimizdə, kəndlərimizdə indi də iqtisadiyyatımız irəliləyir. Ermənilərin 30 il ərzində vandalcasına dağıdıb viranə qoyduqları əzəli məskənlərimizə yenidən həyat qayıdır. Bu torpaqlar addım-addım inkişaf etdirilir, canlandırılır. Azərbaycan Prezidentinin gələcəyə strateji baxışında bölgənin sabahı tam aydın şəkildə təsəvvür edilir.

Prezident İlham Əliyevin mayın 10-da Şuşa şəhərinin ilk sakinləri ilə görüşü, onlara yeni mənzillərinin açarlarını təqdim etməsi bu baxımdan tarixi hadisə idi.

### Əyilməz ruhumuzun rəmzi

Azərbaycan Prezidenti görüşdəki çıxışında qürur mənbəyimiz olan Şuşanı canı-qanı bahasına azad edən gənc nəslin nümayəndələrinin igidliklərindən danışdı. Xüsusi vurğulandı ki, 44 günlük Vətən müharibəsinin ən ağır yükü cəbhədə misilsiz qəhrəmanlıqlar göstərən, ərazi bütövlüyümüz naminə şəhid olan, yaralanan, hər yüksəkliyin, kəndin, qəsəbənin, şəhərin azadlığı üçün silah yoldaşları ilə birgə böyük fədakarlıqlar göstərən gənc əsgər və zabitlərimizin üzərinə düşdü. Qarabağın tacı, ruhumuzun şəhəri olan Şuşanın azad edilməsi üçün sərt qayalardan dırmanaraq yüngül silahlarla - bıçaqla, avtomatla tankın, topun üzərinə atılan, bu igidliyi dünyanın hərb tarixinə düşən Azərbaycan gəncliyinin qəhrəmanlığını unutmaq olarmı?!

Vətən müharibəsi ərəfəsində, hərbi əməliyyatların gedişində hər yeri bayraqlarımızla bəzəyən, öz coşqusu ilə cəmiyyətimizi qələbə ovqatına kökləyən, inam yaradan da əsasən gənclərimiz idi. Prezidentin səfərbərlik çağırışına on minlərlə gənc qətiyyətlə cavab verdi. Hamı döyüşə getmək üçün könüllü yazılırdı.

Bu müharibə təbii ki, dünyanın hərb tarixində əbəqi qalacaq və Vətənə sevgi nümunəsi kimi daim xatırlanacaq. Hazırda dünya mediası, beynəlxalq təşkilatlar əsgər və zabitlərimizin qəhrəmanlıqlarından böyük heyrətlə söz açırlar. Azərbaycanın igid oğulları bu qəhrəmanlıqları real həyatda yaratdılar. Canları-qanları ilə tarix yazdılar. Göstərdilər ki, belə övladları olan, belə cəsur, mərd qəhrəmanlar yetişdirən Vətən heç vaxt yenilməz. Azərbaycan bundan sonra hər birimiz üçün həm də o igidlərimizin fədakarlığına görə dəyərlidir. Ölümsüz qəhrəmanlarımızın Vətənin daşında, qayasında qalmış silinməz izləri ilə müqəddəsdir. Azərbaycan Prezidenti dedi: "Savadlı, bilikli, vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən sağlam, saf gənc nəsil yetişdirdik və onlar 44 gün ərzində öz sinələrini qabağa verərək torpaqları azad etdilər... Azərbaycan xalqı elə bir qəhrəmanlıq, elə bir fədakarlıq göstərmişdir ki, bu gün bütün dünyada Azərbaycan oğulları haqqında danışırlar və bizim xalqımıza hörmət edirlər".

Vətən müharibəsindəki qələbəmizlə dünya bizi yenidən kəşf etdi, Azərbaycan xalqının misilsiz qəhrəmanlığına heyran oldu. Tarixi ədaləti öz gücümüzlə bərpa etdik. Haqqımız olanı, dövlət rəhbərimizin də bəyan etdiyi kimi, danışıqlar yolu ilə, kiminsə güzəşti hesabına yox, döyüş meydanında aldıq, şəhərlərimizi, kəndlərimizi azad etdik, qan tökdük, şəhidlər verdik. Bütün bunlar 44 günlük Vətən müharibəsində yumruq kimi birləşmiş Azərbaycan xalqının birliyinin gücü idi.

Xəstə zəkası, yalanlardan tor bağlamış gözləri ilə uzağı görməyi bacarmayan mənfur düşmən hesablamalarını düzgün apara bilməmişdi. Ermənilər özlərini saxta miflərinə o qədər inandırmışdılar ki, torpaqlarımızı əbədi olaraq işğal altında saxlaya biləcəklərini düşünürdülər. Azərbaycan dövləti onların əsrlər boyu uydurduqları mifləri məhv etdi. Böyük dövlətlərin regionda öz oyunlarını qurmaqdan ötrü ortaya atdıqları bir neçə əsrlik erməni layihəsini ortadan götürdü. Əsrlərdir başqalarının əlində iyrənc vasitəyə çevrilmiş bu mənfurlara da, onların havadarlarına da tarixi bir dərs verdi.

Dünyanın müxtəlif ölkələrində xeyli sayda münaqişə ocaqları var. Bu ocaqların olması kimlərəsə sərf edir. Hansısa xarici qüvvələr müəyyən maraqlarını təmin etməkdən ötrü bu münaqişə ocaqlarını yaradır və idarə edirlər. Bütün bunlar bəşəriyyətin əsrlərcə görə-görə gəldiyi acı reallıqdır. Dünyanın böyük güc mərkəzləri üçün kifayət qədər əhəmiyyətli bölgə olan Cənubi Qafqaz da bu bəladan xali deyil. İmperiyalar dağılanda, əfsus ki, onların ağır miraslarından biri məhz bu cür münaqişə ocaqları oldu. Keçmiş SSRİ imperiyasının belə "qalıqları" ilə Azərbaycan da üzləşdi. On illər boyu danışıqlar aparılır, guya həll yolları axtarılırdı. Amma bütün bunların sadəcə baş qatmaqdan başqa bir şey olmadığını zaman sübuta yetirdi. İtirilən illərin əziyyətini isə sadə insanlar çəkdi. Təxminən 30 il sürən, sülh danışıqları ilə bu qədər müddətdə həll olunmayan münaqişəyə 44 günlük Vətən müharibəsi ilə yekun vuruldu. Bütün dünya gördü ki, qələbə arzusuna çatmaq üçün həm də güclü, qüdrətli olmalısan. Yeri gələndə, vuran əlinin zorunu da göstərməlisən. Düşmən "dəmir yumruğ"un gücünü duymalıdır. Anlamalıdır ki, rəqibi ondan daha güclüdür. Havadarlarının köməyi, güvəndiyi lobbi alverçilərinin dəstəyi onu bu zərbədən xilas etməyəcək.

Azərbaycan xalqı hər zaman 44 günlük Vətən müharibəsi ilə, bu şanlı tariximizlə qürur duyacaq. Bizim buna haqqımız çatır. Kimin kim olduğu bu müharibədə göründü. 44 gün ərzində daim irəiləyən, bir qarış da geri addım atmayan, bir hərbçisi də döyüş meydanını tərk etməyən Azərbaycandan fərqli olaraq Ermənistan ordusunda fərarilərin sayı on minlərlə idi. Müharibənin birinci günündə bir neçə kəndin azad edilməsi ilə qazanılmış qələbə sonuncu günə qədər davam etdi və 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi ilə düşmən faktiki kapitulyasiya aktına imza atmağa məcbur qaldı.

"Şuşa bizim əyilməz ruhumuzun rəmzidir. Şuşa hər bir Azərbaycan vətəndaşının qəlbində elə bir böyük iz buraxıb ki, Şuşasız müharibənin uğurla başa çatması mümkün deyildi" - bu şəhərin sakinləri ilə görüşdə Azərbaycan Prezidenti qeyd etdi.

Azərbaycan uzun illərin mübarizəsindən sonra ərazi bütövlüyünü bərpa etməyə nail olmuş ölkə kimi adını tarixə yazdı. 2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində Qarabağ separatçılardan tam təmizləndi. Azərbaycan heç kiminlə hesablaşmadan, heç kimin təzyiq və təhdidlərindən qorxub geri addım atmadan lazımi əməliyyatı böyük peşəkarlıqla, məharətlə, əsgər və zabitlərimizin misilsiz fədakarlığı ilə həyata keçirdi. Separatçıların əsas "rəhbərləri" törətdikləri cinayət əməllərinə görə ədalət mühakiməsi qarşısında cavab vermək üçün qandallanaraq Bakıya gətirildilər. Azərbaycan tarixi, əzəli torpaqlarımızı işğalçılardan azad etməyə müvəffəq oldu. Bununla dövlətimiz öz gücünü, siyasi iradəsini göstərdi.

### Dirçələn Şuşa

2020-ci ilin 8 noyabr günü Şuşanın azadlığı müjdəsini xalqımıza yetirərkən, "Əziz Şuşa, sən azadsan. Əziz Şuşa, biz qayıtmışıq. Əziz Şuşa, biz səni dirçəldəcəyik" - deyə sevincini, ümidlərini, gələcəyə strateji baxışını bölüşən Azərbaycan Prezidentinin quruculuq siyasəti bu gün o ümidi də reallığa çevirir. Şuşada genişmiqyaslı quruculuq işləri davam edir. Bunun daha bir nümunəsi kimi, elə bu ilin 10 mayında Ümummilli Lider Heydər Əliyevin doğum günündə Şuşada üçüncü yaşayış kompleksinin təməli qoyuldu. Xatırladaq ki, 2023-cü ilin 10 mayında ikinci yaşayış kompleksinin təməli qoyulmuşdu. Birinci yaşayış kompleksində 450, ikincidə 300-ə yaxın, üçüncüdə isə 500-ə yaxın mənzil inşa ediləcək. Yaşayış komplekslərinin inşasına paralel olaraq mədəniyyət paytaxtımızda genişmiqyaslı infrastruktur layihələri də reallaşdırılmaqdadır. Qələbəmizdən dərhal sonra çox qısa müddətə Füzuli şəhərindən Şuşaya Zəfər yolu çəkildi. İndi isə yeddi tuneli, doqquz viaduku, bir çox körpüləri olan dördzolaqlı daha geniş magistral avtomobil yolu çəkilməkdədir.

Zəfərimizdən dərhal sonra Şuşanın tarixi abidələrinin bərpasına başlanıb və qısa müddətdə bu istiqamətdə ciddi nəticələr əldə olunub. Vaqifin məqbərəsi yenidən qurularaq, ermənilərin abidəyə qarşı vandalizm əməllərindən əvvəlki görkəminə qaytarılıb. Yuxarı Gövhər ağa məscidi, Saatlı məscidi bərpa edilib. Mamayı məscidinin bərpadan sonra açılışı olub. Çöl Qala məscidində bərpa işləri başlanılıb. Mehmandarov məscidinin və Mehmandarovların evinin bərpası həyata keçirilib. "Şirinsu" hamamının əsaslı təmirdən sonra açılışı olub. Aşağı Gövhər ağa məscidində təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Üzeyir bəy Hacıbəylinin erməni vandalları tərəfindən dağıdılmış abidəsi yenidən öz yerinə qoyulub. Dahi bəstəkarımızın dağıdılmış evi də yenidən qurulmaqdadır. Bu gün Şuşada artıq dörd mehmanxana şəhərin qonaqlarının xidmətindədir.

### Yeni bir gələcək

Azərbaycan Prezidentinin də şəhər sakinləri ilə görüşündə qeyd etdiyi kimi, bu unikal məkanda hər şey çox müfəssəl və dəqiq, ən müasir şəhərsalma qaydalarına uyğun planlar əsasında qurulur. Bu bərpa-yenidənqurma işlərinə dünyanın aparıcı şirkətləri cəlb olunub. Bu torpaqlarda hər bir iş bütün detallar nəzərə alınmaqla, sevgi ilə, yüksək məsuliyyətlə görülür. Həyata keçirilən bütün layihələr dövlət rəhbərimizin birbaşa diqqəti və nəzarətindədir. Çünki bu işlər sadəcə bərpa-quruculuq tədbirlərinin həyata keçirilməsi deyil, azad yurdlarımızda qurulan yeni bir gələcəkdir, başlanan yeni bir həyatdır, reallaşdırılan böyük məqsədlərdir. Torpaqlarımızın azadlığından sonra indi ən mühüm hədəflər sırasında Qarabağ və Şərqi Zəngəzur bölgələrini nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən birinə çevirmək var. Azərbaycan dövləti bu hədəfə də çatacaq. Həyata keçirilən quruculuq tədbirləri ilə Şuşa da, başqa şəhərlərimiz də tarixi dəyəri qədər müasir görkəmi ilə də bütün dünya azərbaycanlılarının qürur yeri, fəxarət ünvanı olacaq.

"Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz azərbaycançılıq simasını qoruyub saxlayıb. Əgər ermənilər bunu özlərinə doğma şəhər sayırdılarsa, Şuşanı quraydılar, yaradaydılar, dağıtmayaydılar. Bir daş daş üstə qoyulmayıb. Biz gəlmişik burada əbədi yaşamağa və bundan sonra Azərbaycan bayrağı bu torpaqlarda əbədi dalğalanacaq", - Azərbaycan Prezidenti bəyan etdi.

Şuşada, həmçinin inşa edilmiş digər qəsəbə və şəhərlərdə məşğulluq məsələləri də həll olunur, treninqlər keçirilir, buraya qayıdacaq insanların işlə təmin olunması məsələlərinə də çox diqqətlə baxılır və bu işlər öz həllini tapır.

### Qələbədən qələbəyə

Bu gün Qarabağda, Şərqi Zəngəzurda həyata keçirilən işlər Azərbaycan dövlətinin sülh niyyətinin, regionumuzu davamlı inkişaf, rifah və xoşbəxtlik məkanına çevirmək arzusunun ifadəsidir. Azərbaycan dövləti bu regionu yenidən qan çanağına döndərmək istəyənlərin fitnə-fəsadlarına imkan verməyəcək. Prezident İlham Əliyev Şuşa sakinləri ilə görüşündə yeni reallıqlarla bağlı qətiyyətli mövqeyini, mesajlarını bir daha lazımi ünvanlara çatdırdı: "Fransa və Amerika bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır".

Ermənistanda revanşistlərin baş qaldırdığını, Fransanın Ermənistana öldürücü silahlar verdiyini xatırladan dövlət rəhbərimiz onu da bəyan etdi ki, Fransanın verdiyi silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin: "Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik".

Bu gün Qazaxın 1990-cı və 1992-ci illərdə işğal edilmiş torpaqlarının bir güllə belə atılmadan bizə qaytarılması, delimitasiya, demarkasiya tədbirlərinin ölkəmizin şərtləri əsasında həyata keçirilməsi tarixi qələbəmizin növbəti zəfərlərimizlə davam etdirildiyini, Azərbaycan Prezidentinin sarsılmaz qətiyyətinin xalqımızı yeni möhtəşəm uğurlara apardığını göstərir.

Bu qətiyyət Prezident İlham Əliyevin ən qüdrətli çağlarına yetirdiyi Azərbaycan dövlətinin gücünə, beynəlxalq nüfuzuna, ölkə rəhbərimizin gələcəyə strateji baxışına əsaslanır. Bu gün regionun inkişaf reallıqlarını yaradan məhz Azərbaycan dövlətidir, bölgəmizin gələcəyinin müəllifliyi də məhz ölkəmizə aid olacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## "Azərbaycan ailəsi: dəyişən və dəyişməyən dəyərlər" mövzusunda konfrans keçirilib



15 May Beynəlxalq Ailə Günü ilə əlaqədar olaraq Sosial Tədqiqatlar Mərkəzinin (STM) təşkilatçılığı ilə Bakıda "Azərbaycan ailəsi: dəyişən və dəyişməyən dəyərlər" mövzusunda konfrans təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbir STM-in icraçı direktoru Sahib Məmmədovun moderatorluğu ilə keçirilib. Konfransda çıxış edən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, BMT-nin Baş Assambleyası 1993-cü ildə 15 may tarixinin Beynəlxalq Ailə Günü kimi təsis edilməsinə qərar verib və həmin gündən 31 il keçir. Böyük mənəvi ideoloji dəyəri olan ailə məfhumunun zəngin ənənələrə malik ölkəmizdə diqqətdə saxlanıldığını vurğulayan Z.Oruc Azərbaycan cəmiyyətində ailəyə verilən dəyərlərdən danışıb.

STM-in İdarə Heyətinin sədri bildirib ki, Ulu Öndər Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi qiymətləndirərək ailə ənənələrinə, milli-mənəvi dəyərlərimizə sədaqətin, uşaqların müasir səviyyədə tərbiyəsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayırdı. Azərbaycan cəmiyyətində ailəyə verilən dəyərdən və ailə məsələləri ilə bağlı həssaslıqdan, ənənələrə sadiqlikdən, eyni zamanda yeni tendensiyalardan danışan Z.Oruc deyib: "Minillik azadlıq arzularını reallaşdıran xalqımızın zəfərinin əsasında məhz möhkəm ailə dəyərləri dayanır. Düşünürəm ki, belə bir xalqın ailə dəyərləri kontekstində öz milli günü olmalıdır".

Ailə tərbiyəsinin hər bir uşaq və gənc üçün mühüm amillərdən olduğunu diqqətə çatdıran STM-in İdarə Heyətinin sədri sosial-mənəvi, mədəni-milli mühitin saflığının qorunmasının əhəmiyyətini qeyd edib. Bildirib ki, bu istiqamətdə ölkəmizdə müvafiq tədbirlər görülür. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycan qadınlarının problemlərinə, onların ictimai həyatda aktiv rolunun təmin edilməsinə böyük qayğı ilə yanaşırlar.

Cəmiyyətdə gənclərin rolunu yüksək qiymətləndirən Z.Oruc işğaldan azad olunmuş ərazilərimizdə gənclik şəhərinin yaradılmasını təklif edib.

Mediasiya Şurasının İdarə Heyətinin sədri, hüquq üzrə fəlsəfə doktoru Nadir Adilov ailə münaqişələrinin həllində tədqiqat əsaslı strategiyaların vacibliyindən danışıb. Ölkədə boşanmaların əsas səbəbinin planlaşdırılmış nikahlar olduğunu diqqətə çatdıran N.Adilov bildirib ki, cari ilin birinci rübündə quruma 11 min 692 min müraciət daxil olub və bundan təxminən 10 min müraciət ailə mübahisəsi zəminindədir. Müraciətlərdən 522-si kommersiya, 487-si əmək, 83-ü isə digər sahələrə aiddir.

Mediasiya Şurasının İdarə Heyətinin sədri ölkədə cari ilin birinci rübündə boşanma ilə bağlı 1300 işə xitam verildiyini də diqqətə çatdırıb. O, ailə-məişət zəminində baş verən problemlərin həlli istiqamətində qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyini qeyd edib. Onun sözlərinə görə, psixoloqlarla bağlı inzibati məsuliyyətlə əlaqədar qanunvericilikdə bəzi boşluqlar vardır. Vətəndaşların əksəriyyəti psixoloqlardan zərər görürlər və biz çox vaxt çətinlik qarşısında qalırıq. Ödənişsiz vəkil xidməti ilə bağlı danışan N.Adilov əmək mübahisələrinin sayının kəskin aşağı düşdüyünü də qeyd edib.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri Humay Axundzadənin təqdimatında STM-in 2023-cü il ərzində həyata keçirdiyi sorğular əsasında tərtib olunan "Müasir Azərbaycan ailəsi" mövzusunda hesabat barədə məlumat verilib. Analitik hesabatın müəllifi H.Axundzadə "Müasir Azərbaycan ailəsinin ənənəvi və yenilənən cəhətləri" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, hesabat 3478 respondentin rəyini əks etdirir.

Konfrans müzakirələrlə davam edib.

## Azərbaycan Milli Kitabxanası Özbəkistanda beynəlxalq konfransda təmsil olunub

Özbəkistanın Səmərqənd şəhərində "Səmərqənd - MDB-nin mədəniyyət paytaxtı-2024" dövlətlərarası proqram çərçivəsində "Kitabxanalar birliyi: tərəfdaşlıq və innovasiya" mövzusunda Müstəqil Dövlətlər Birliyi (MDB) kitabxanaçılarının beynəlxalq konfransı keçirilib. Konfransda ölkəmizi Azərbaycan Milli Kitabxanasının Elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova təmsil edib.

Azərbaycan Milli Kitabxanasından AZƏRTAC-a bildirilib ki, tədbirdə Səmərqənd vilayətinin hakimi Erkinjon Turdimov, Özbəkistanın mədəniyyət nazirinin birinci müavini Bahadır Əhmədov, Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin direktoru Asadjan Xocayev, MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun müşaviri Kamol Rəhimov, Rusiya Dövlət Kitabxanasının baş direktoru, Avrasiya Kitabxanalar Assambleyasının prezidenti Vadim Duda çıxış ediblər. Beynəlxalq konfransda Ədibə İsmayılova "Kitabxana-informasiya sahəsində süni intellektdən istifadənin üstünlükləri" mövzusunda məruzə və təqdimatla çıxış edib.

O qeyd edib ki, süni intellektin kitabxana-informasiya sahəsinə tətbiqi bu sahədə yeni xidmətlərin inkişafı üçün imkanlar açır. Süni intellektin kitabxana və informasiya sahəsinə tətbiqi biblioqrafik verilənlər bazalarının, ilk növbədə elektron kataloqun axtarış imkanlarının təkmilləşdirilməsinə imkan verir. Süni intellektdən istifadə materiallarının indeksləşdirilməsi və kataloqlaşdırılması, istifadəçi sorğularının işlənməsi, məlumatların təhlili və s. kimi bir çox gündəlik işləri avtomatlaşdırmağa imkan verir. Bu, kitabxanalara vaxt və resurslara qənaət etməyə və proseslərin səmərəliliyini artırmağa imkan yaradır.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycanın Zəfəri Minsk qrupunu da tarixə qovuşdurdu

### 28 ildə missiyasını yerinə yetirməyən və məşğul ola biləcəyi hər hansı məsələ qalmayan ATƏT-in bu təsisatı hüquqi baxımdan da ləğv edilməlidir

"...ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır. Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür".




Prezident İlham Əliyevin mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman vurğuladığı kimi, Azərbaycanın qazandığı ardıcıl zəfərlər iki ölkə arasında münaqişəyə də son qoyub. Bununla bölgədə tamamilə yeni reallıqlar yaranıb və dayanıqlı sülhə yol açılıb.

Xüsusilə 2024-cü ildə iki ölkə arasında dayanıqlı sülhə nail olunması istiqamətində ardıcıl addımlar atılması, birbaşa dialoqların aparılması, sərhədlərin delimitasiya və demarkasiyasına başlanması, 4 qeyri-anklav kəndin azad edilməsi də bu istiqamətdə mühüm irəliləyişlərdən xəbər verir. Bütün bu sadalananların fonunda o da aydın görünür ki, ATƏT-in onsuz da yarandığı gündən etibarən ölü fəaliyyət göstərən Minsk qrupuna və onunla əlaqədar olan təsisatlara artıq heç bir ehtiyac yoxdur və ləğvinin tam zamanıdır.

#### Tərəfkeşlik, xain təşəbbüslər

Düz 28 illik böyük bir zaman dilimində məhz ATƏT-in Minsk qrupunun, sözün əsl mənasında, erməni təəssübkeşliyinin nəticəsində iki ölkə arasında münaqişənin həll edilməsi üçün irəliyə doğru bir addım belə atılmayıb. Əksinə, vəziyyətin olduğu kimi qalması, Azərbaycanın torpaqlarının işğalı ilə barışması üçün həmsədr ölkələr xeyli səy göstəriblər. Münaqişənin sülh yolu ilə, danışıqlar vasitəsilə həll olunması ilə bağlı mandat almış bu qrupu ötən müddətdə nə torpaqlarımızın işğal altında olması, nə bir milyondan çox azərbaycanlının qaçqın və didərgin halda yaşaması maraqlandırmayıb. Həmsədrlər sadəcə öz işlərini bölgəyə, Azərbaycana turist səfərləri etməklə bitmiş hesab ediblər. Münaqişəni ədalətli yolla həll etmək əvəzinə, tərəf tutublar və onu Ermənistanın xeyrinə olaraq əbədiyyətə qədər dondurmağa təşəbbüslər göstəriblər.

ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman dövlət başçısı məhz bu məqamın altını cızaraq söylədi ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və torpaqlarımızın işğalının nəticələrinin aradan qaldırılması ATƏT-in yaranmasından bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də ATƏT-in Minsk qrupunun həmsədrlik mexanizmi münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etməmişdir: "Bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesi də Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət göstərmişdir".

#### "Siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz?"

Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dünya güclərinə qarşı milli maraqlarımızı qətiyyətlə müdafiə etməsi sayəsində ikili standartlar nümayiş etdirən ölkə və qurumlar, o cümlədən Minsk qrupunun Azərbaycanla bağlı məkrli planları baş tutmadı. Bakı siyasi qətiyyəti ilə Vətən müharibəsinə qədərki dövrdə də bütün beynəlxalq platformalarda ölkəmizin haqq işini müdafiə etdi, dövlət başçıları səviyyəsində bütün dünyaya bəyan etdi ki, Azərbaycan heç zaman Ermənistanın işğalı ilə barışmayacaq və nəyin bahasına olursa olsun, tarixi ədaləti bərpa edəcək.

2020-ci il Vətən müharibəsində, eləcə də antiterror əməliyyatları zamanı Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək işğala son qoydu. Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsi də tarixdə qaldı.

Göründüyü kimi, ölkəmiz Minsk qrupunun üç onillik ərzində həll edə bilmədiyi münaqişəyə hərb meydanında son qoydu.

O da faktdır ki, əgər bu qurum öz mandatına uyğun fəaliyyət göstərmiş olsaydı, nə 44 günlük müharibəyə, nə də 23 saatlıq antiterror tədbirlərinə lüzum olacaqdı.

Bütün bunlara görə də üzərinə götürdüyü missiyanı yerinə yetirməyən Minsk qrupunun fəaliyyətinə də defakto son qoyuldu, ikilistandartlı təsisatın bölgədə həll edəcəyi hər hansı münaqişə, problem qalmadı.

Hər kəs yaxşı xatırlayır ki, Minsk qrupunun qeyri-müəyyən vəziyyətini hələ Vətən müharibəsindən dərhal sonra qrupun həmsədrlərinin Bakıya səfəri zamanı İlham Əliyev onların özlərinə çatdırmış və ritorik sual da ünvanlamışdı: "Bizim xarici işlər nazirimiz Minsk qrupunun həmsədrləri ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşdür və biz deyirdik ki, siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz? Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan ərazisində Dağlıq Qarabağ inzibati ərazisi yoxdur və olmayacaq. Siz nə ilə məşğul olmaq istəyirsiniz, deyin, biz də bilək və öz fikrimizi bildirək. Bir ildən çox müddətdə bu məsələ ilə bağlı bizə hər hansı bir təklif verilməmişdir. İndiki şəraitdə isə Minsk qrupu, onun həmsədrlər formatı faktiki olaraq qeyri-funksional vəziyyətdədir".

#### Bölgədə münaqişə ssenarisi iflasa məhkumdur

Ölkəmizin ədaləti güc yolu ilə təmin etməsi, Cənubi Qafqazda münaqişələrdən uzaq yeni bir dövr açıb və sülh üçün əlverişli şərait formalaşdırıb.

Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin və bu prosesin əsasını təşkil edən fundamental prinsiplərin təşəbbüskarı məhz ölkəmiz olub və sülh müqaviləsinin mətni də Azərbaycan tərəfindən hazırlanaraq müzakirəyə təqdim edilib. Hazırda sülh gündəliyinin irəliyə aparılması üçün Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi davam etdirilir.

Lakin Cənubi Qafqazda hadisələrin normallaşma istiqamətində cərəyan etməsi, bəzi Qərb təsisat və ölkələrini qane etmir, xüsusilə də ABŞ və Fransanı. Hansı ki adıçəkilən ölkələr elə həm də ATƏT-in Minsk qrupu çərçivəsində vasitəçi ölkə olaraq da daim ölkəmizə qarşı qərəzli mövqe sərgiləyiblər.

Buna görə də vaxtaşırı bu ölü qurumun yenidən dirildilməsi ilə bağlı təşəbbüslər göstərməyə çalışırlar. Lakin bütün bu məkrli cəhdlər əbəsdir. Azərbaycan regionu təhlükəyə, münaqişəyə sürükləyəcək hər hansı addıma qətiyyən imkan verməyəcək.

Azərbaycanın Zəfəri Minsk qrupunu da tarixə qovuşdurdu. 28 ildə missiyasını yerinə yetirməyən və məşğul ola biləcəyi hər hansı məsələ qalmayan ATƏT-in bu təsisatı hüquqi baxımdan da ləğv edilməlidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## ATƏT-in fəaliyyətsiz təsisatlarının ləğvi ilə bağlı tələbimiz haqlıdır

"Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun və onun bəzi təsisatlarının ləğvinin vaxtının gəlib çatdığını, bu ilin fevralında sözügedən təşkilatın baş katibi xanım Şmidlə Münxendəki görüşündə də demişdi. Minsk qrupuna həmsədrlik edənlərin və ümumiyyətlə, ATƏT-i təsiri altında saxlayan böyük güclərin sözügedən təsisatların ləğv olunmasını qətiyyən istəmədiklərini bilə-bilə dövlət başçısının bu məsələni ikinci dəfə gündəmə gətirməsi bu tələbin tezliklə reallaşacağını göstərir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. Deputat qeyd edib ki, nəzərə almaq lazımdır ki, Ermənistanın baş naziri mayın 14-də Kopenhagendəki açıqlamasında Azərbaycanla əldə olunan razılaşmaları sülh anlaşmasına daxil etməyin və müqaviləni imzalamağın vaxtının çatdığını bildirib: "Bundan öncə isə həmin Paşinyan Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu dəfələrlə dilə gətirib. İndi Qarabağda hay əsillilər, demək olar ki, qalmayıb, onlar özləri bizim torpaqlarımızı tərk ediblər. Belə vəziyyətdə aydın olur ki, sözügedən təsisatların fəaliyyət göstərmələri üçün zərrə qədər əsasları yoxdur".

Minsk qrupunun, əslində, heç bir mandatının olmadığını xatırladan deputat əlavə edib: "Ümumiyyətlə, bu təsisat qrup olaraq da yaradılmayıb. 1992-ci ildə Azərbaycanla Ermənistan, o zaman ATƏM adlandırılan ATƏT-ə üzv qəbul edilərkən iki ölkə arasında konfliktin aradan qaldırılması üçün Minskdə konfrans keçirmək qərarına gəlinib. Lakin həmin qərarın ardınca Ermənistan Azərbaycanın digər ərazilərini də işğal etməyə başladığına görə konfrans baş tutmayıb. O zamandan bəri də həmin qrupa üzv olan dövlətlər heç zaman bir yerə yığışmayıblar. Sadəcə olaraq, Minsk qrupuna həmsədrlik edənlərin mandatı təsdiqlənib".

Sahib Alıyevin sözlərinə görə, hazırda Dağlıq Qarabağ münaqişəsi olmadığına görə ATƏT təsisatlarının uzun illər heç bir nəticə verməyən fəaliyyətinə də ehtiyac yoxdur: "Azərbaycanla Ermənistan ikitərəfli danışıqlar nəticəsində sülh anlaşmasının bir addımlığındadırlar. Bu sülh razılaşmaları isə Minsk qrupu həmsədrlərinin səyləri nəticəsində deyil, əksinə, onların dirənişlərinə rəğmən baş verir".

Deputat yekunda bildirib ki, Prezidentin ATƏT təsisatlarının ləğvi ilə bağlı fikirləri haqlı tələbdir: "Biz Vətən müharibəsində zəfər qazanmaqla torpaqlarımızın işğalda qalmasını arzulayanları fakt qarşısında qoyduğumuz kimi, bu gün də Minsk qrupu və ona bağlı təsisatların mövcudluğunda maraqlı olanları da fakt qarşısında qoyacağıq".

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

## Azərbaycanla Ermənistan arasındakı sülh prosesi beynəlxalq gündəliyin məsələsi deyil

"Mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədri İan Borqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtı çatmasına dair bəyanatı Azərbaycanın yaratdığı obyektiv hərbi-siyasi reallığın inikasıdır. Azərbaycan elə bir reallıq yaradıb ki, Cənubi Qafqaz tarixində sülh və dayanıqlı sabitlik üçün hələ heç vaxt belə ümidverici mənzərə yaranmayıb".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat söyləyib ki, inkarolunmaz reallıqdır ki, Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində başlanan prosesin təşəbbüskarı Azərbaycan olub: "Vətən müharibəsi və antiterror tədbirlərində mütləq qələbələrinə baxmayaraq, Azərbaycan beynəlxalq hüququn şərtlərini rəhbər tutaraq ərazi bütövlüyü və suverenliyi ehtiva edən sülh şərtlərini irəli sürüb. Bakının irəli sürdüyü beş şərt əsasında bir neçə platformada dialoq başlanıb".

Deputatın sözlərinə görə, Bakı qəti olaraq o qənaətdədir ki, Azərbaycan və Ermənistan arasında münasibətlər, o cümlədən sülh prosesi beynəlxalq gündəliyin məsələsi deyil. Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında ABŞ Dövlət katibi və ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşlərində bu məsələ ilə bağlı yekun mövqeyini ortaya qoyub və bildirib ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Etiraf edək ki, bu məsələ ilə bağlı artıq prosesdə marağı olan subyektlər Azərbaycanın direktivləri ilə barışmalı olub.

"Mayın 14-də ATƏT rəsmisi ilə görüşdə Prezidentin təkrar bu mövzuya dönməsi, bu təsisatın fəaliyyətinə dair mövqeyini xüsusilə açıq şəkildə bildirməsi öz növbəsində yaranan yeni geosiyasi konfiqurasiya ilə bağlıdır. Dövlət başçısı ATƏT-in yaranmasından bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də onun Minsk qrupunun həmsədrlik mexanizminin münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etmədiyini bir daha İan Borqun diqqətinə çatdırmaqla Bakı-İrəvan münasibətlərinin normallaşmasının beynəlxalq gündəlikdən kənar daha effektiv formada realizə oluna biləcəyini göstərdi. Eyni zamanda İlham Əliyev kifayət qədər sərt ritorika seçərək illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesinin sülhə yox, Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət göstərdiyini bəyan etdi", - deyə müsahibimiz bildirib.



Bəhruz Məhərrəmov əlavə edib ki, proseslərin gedişatında Azərbaycan ötən dövrün təcrübəsinə istinad edərək sülh danışıqlarının delimitasiya və demarkasiya prosesindən tamamilə ayrılmalı, eyni zamanda vasitəçisiz davam etməli olduğu tezisində israr edib: "Möhtərəm Prezidentin andiçmə mərasimində də ifadə etdiyi kimi, "Ermənistanın havadarları daim yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər, amma bizə bu məsələdə vasitəçi lazım deyil". Yekun sülh üçün ümidverici hal bundadır ki, Azərbaycan Prezidentinin bu tezisləri də əsas direktivə çevrildi. Bakı və İrəvan bu gün faktiki olaraq vasitəçisiz şəkildə "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" üzərində işləyirlər. Eyni zamanda sərhədlərin delimitasiyası və demarkasiyası sahəsində əhəmiyyətli nailiyyətlər mövcuddur. ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşdə də ifadə olunduğu kimi, məhz ölkəmizin təşəbbüsü ilə Azərbaycanla Ermənistan arasında sülh prosesinin və bu prosesin əsasını təşkil edən fundamental prinsiplərin və mətnin Azərbaycan tərəfindən hazırlanaraq müzakirəyə təqdim edilən sülh müqaviləsinin əsasında hazırda sülh gündəliyinin irəliyə aparılması üçün danışıqlar prosesi davam etdirilir. Üstəlik, Azərbaycan Prezidentinin hərbi-siyasi yolla yaratdığı reallıqlar fonunda beynəlxalq hüquqa əsaslanan mövqeyi artıq nəticə verir".

Müsahibimiz onu da deyib ki, ötən il dekabrın 7-də, habelə bu il aprelin 19-da Bakı və İrəvan arasında əldə edilən razılaşmalar münasibətlərin beynəlxalq gündəliyin məsələsi olmadığını, habelə vasitəçisiz təmasların daha effektiv olduğunu sübut etməklə bərabər, həm də regionda sülh üçün unikal imkan yaradıb: "Düzdür, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Qazaxıstanın Almatı şəhərində danışıqlarda hələ də fikir ayrılıqlarının və açıq qalan məsələlərin olduğu üzə çıxsa da, sülh sazişi üzrə müddəaların müzakirəsini davam etdirməyə razılaşıblar. Məsələdə Azərbaycanın mövqeyi kifayət qədər sabitdir. Cənab Prezidentin də ifadə etdiyi kimi, "Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək". Təbiidir ki, aprelin 19-da dövlət sərhədinin delimitasiyası üzrə Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında əldə olunan razılığın ardınca yaranan pozitiv mühit haqlı olaraq bizdə Almatıdan daha qəti nəticələr gözləntisi yaratmışdı. Lakin görünən odur ki, Ermənistan daxilində artan məqsədli gərginlik fonunda, habelə İrəvanda bəzi dairələrdə yanlış olaraq belə bir eyforiya yaranıb ki, Fransa, Hindistan və Yunanıstandan daşınan silahlar hesabına bu ölkə yenidən işğal dövrünün status-kvosunu bərpa edə bilər. Nəticədə də Ermənistanın ikili oynamaq niyyəti sezilməkdədir. Daha dəqiq desək, İrəvan sülhə getmək məcburiyyətində qalmaqla bərabər, eyni zamanda revanşist niyyətlərindən də tam əl çəkə bilmir".

Deputat Azərbaycanın sülh danışıqlarını sonsuza qədər uzatmaq niyyətində olmadığını və sülhə sadiq qalmaqla bərabər, bütün situasiyalara hazır olduğunu söyləyib. Bildirib ki, aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda da Prezidentin ifadə etdiyi kimi, "Biz gələcəyimizi real vəziyyətə əsaslanaraq planlaşdıracağıq. Yəni sülh sazişi imzalanmasa, dediyim kimi, silahlanma yarışı davam etdirilməlidir". Aydındır ki, proseslərin məhz bu ssenaridə inkişaf etməsini arzulayan qüvvələr var və xüsusən Fransa bu məsələdə "baş rol"a iddialıdır".

Bəhruz Məhərrəmov həmçinin qeyd edib ki, sülh üçün yaranmış unikal imkan, əslində, Ermənistanın və erməni xalqının maraqlarına xidmət edə bilər. Bu isə ən qısa zamanda Azərbaycanla münasibətlərin normallaşdırılmasını diktə edir: "Lakin Fransa regionda özünün neokolonist maraqlarına görə sülhə təhdid kimi baxdığı üçün Bakı və İrəvan arasında gərginliyin artmasında nəinki maraqlı görünür, üstəlik, yenidən münaqişənin alovlanması üçün silah-sursat verilməsindən tutmuş revanşist kəsimin maliyyələşdirilməsinə qədər çoxsaylı təxribatçı davranışlar sərgiləyir. Fransa rəsmilərinin, o cümlədən bu ölkənin Ermənistandakı səfirinin bu fonda bəyanatları da göstərir ki, Fransa Ermənistana müstəmləkəsi kimi baxır və bunu gizlətmir, Fransanın Ermənistandakı səfiri isə özünü Parisin İrəvandakı canişini kimi aparır. Xüsusən ABŞ-nin Azərbaycandakı səfirinin Şuşaya səfəri çərçivəsində Fransanın İrəvandakı səfirinin kinayəli bəyanatları fonunda bunu daha aydın formada müşahidə etmək olur. Bu isə öz növbəsində ciddi beynəlxalq hüquq pozuntusudur. Fransanın Cənubi Qafqazda sülh prosesinə mane olmaq cəhdləri beynəlxalq hüququn dövlətlərin daxili işinə qarışmamaq prinsipinə, bu ölkənin Ermənistandakı səfirinin təxribatçı fəaliyyəti isə "Diplomatik münasibətlər haqqında" 1961-ci il Konvensiyasına köklü şəkildə ziddir. Görünən odur ki, təcavüzkar niyyətlərinin əsiri olan Fransa üçün artıq diplomatik və hüquqi hədlər qalmayıb. Lakin reallıq ondan ibarətdir ki, Parisin nə istəməsi, yaxud nəyə cəhd etməsi regionda artıq əhəmiyyət kəsb etmir. Təbii ki, biz situasiyanın nəzarətdən çıxmaması üçün prosesləri diqqətlə izləyirik və Bakının mövqeyi də kifayət qədər aydın və adekvatdır".

Deputat yekunda Prezident İlham Əliyevin Şuşada sakinlərlə görüşdə açıq şəkildə etdiyi "Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz" xəbərdarlığına diqqət çəkib. Deyib ki, Ermənistan hakimiyyəti və ictimaiyyəti proseslərə məhz bu rakursdan baxmalıdırlar ki, Azərbaycan nə qədər sülhə sadiq olsa da, İrəvanla münasibətlərin normallaşdırılmasının bizim üçün prioritet olmadığını başa düşməlidirlər.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Lissabonda KAICIID-in Qlobal Dialoq Forumu işə başlayıb

Mayın 15-də Portuqaliyanın Lissabon şəhərində Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Qlobal Dialoq Forumu öz işinə başlayıb.

Qafqaz Müsəlmanları İdarəsindən AZƏRTAC-a bildirilib ki, "Transformativ dialoq: Sürətlə dəyişən dünyada sülh naminə alyansların qurulması" mövzusuna həsr edilmiş forumda KAICIID-in baş katibi Zuhair Alharthi tədbirin məqsədi barədə danışıb.

Avstriyanın sabiq prezidenti Haynts Fişerin və Fransanın keçmiş prezidenti Fransua Ollandın forum iştirakçılarına məktubları oxunub.

Konstantinopol Ekumenik Patriarxı I Varfolomeyin, İtaliyanın keçmiş baş naziri Matteo Renzinin, Lissabon şəhərinin meri Carlos Moedasın, Məkkə məscidinin imamı Saleh bin Abdullah əl-Humeydinin, Misirin baş müftisi Şövqü Əllam İbrahim Abdel-Kərimin, Polşanın baş ravvini Mixael Şudriçin, Portuqaliya parlamentinin sabiq sədri Auqusto Santos Silvanın məruzələri və çıxışları dinlənildikdən sonra KAICIID-in fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Forumda KAICIID Direktorlar Şurasının üzvü, Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə də çıxış edib.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Prezident İlham Əliyevin Qlobal Dialoq Forumunun iştirakçılarına ünvanlanmış məktubunu oxuyub.

Qeyd edək ki, KAICIID dünyanın bütün əsas dinlərinin nümayəndələri tərəfindən idarə olunan yeganə hökumətlərarası təşkilatdır. Təşkilatın missiyası müxtəlif dinlərə və mədəniyyətlərə malik insanlar arasında sülh, tolerantlıq və anlaşmanı təşviq etməkdir. Qlobal Dialoq Forumunun məqsədi isə BMT-nin 2030-cu il gündəliyində təsbit edilən ümumi məqsədlərə doğru transformativ dialoq proseslərinin qurulması üçün yol xəritəsi haqqında qərar qəbul etməkdir.

# Şeyxülislam Lissabonda Qlobal Forumda Azərbaycanın multikulturalizm siyasətindən danışıb




"Təəssüflə qeyd olunmalıdır ki, beynəlxalq sabitliyə və təhlükəsizliyə əngəl törədən ideoloji və praktiki çağırışlar, o cümlədən ksenofobiya, dini və etnik dözümsüzlük faktları, nifrət çağırışları qlobal miqyasda artmaqdadır. Dünyanın xilası bəşəri mənafelər naminə bir araya gəlməkdən və etimad mühitinin formalaşdırılmasından keçir. Dinlərarası dialoq və əməkdaşlıq bu baxımdan əvəzolunmaz əhəmiyyət kəsb edir. Bütün mövcud problemlərin fövqündə duran sülhün bərqərar olunması, qorunması məramı ilə BMT Sivilizasiyalar Alyansı, G20 Dinlərarası Forumu kimi nüfuzlu beynəlxalq təşkilatların strukturlarında, İqlim Dəyişikliklərinə dair qlobal təşəbbüs - COP tədbirləri çərçivəsində sülh naminə dini liderlərin iştirakı ilə real əməkdaşlıq müstəvisinin təşkili yönündə səylər təqdir olunmalıdır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Portuqaliyanın Lissabon şəhərində Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Qlobal Dialoq Forumundakı çıxışı zamanı deyib.

Şeyxülislam bildirib ki, bu gün Azərbaycan dövləti işğaldan azad olunmuş Qarabağda şəhər və kəndləri bərpa edir, dağıdılmış məscidləri və digər dinlərə məxsus məbədləri yenidən inşa edir. Eyni zamanda insanlarımızın dədə-baba yurdlarına qayıdışı üçün infrastrukturun qurulması prosesində ekoloji tarazlığın bərpası yönündə genişmiqyaslı örnək layihələr gerçəkləşdirir. Azərbaycanda multikulturalizm dövlət siyasəti olaraq həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev mədəniyyətlər, dinlərarası dialoq, əməkdaşlıq proseslərinə ali dəstək və himayə göstərir.

"Bu yaxınlarda Azərbaycanda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu uğurla başa çatdı. Forum çərçivəsində dini liderlərin Bakı görüşü olduqca məhsuldar oldu, Şuşa Bəyannaməsi qəbul edildi. Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası böyük əhəmiyyətə malikdir. Bu qlobal tədbir çərçivəsində dünya dini liderlərinin yüksəksəviyyəli görüşü baş tutacaq. Azərbaycan dövləti və dini mərkəz olaraq Qafqaz Müsəlmanları İdarəsi beynəlxalq dinlərarası dialoqun təşviqi, regionda və bütövlükdə bütün dünyada mötədilliyin, məzhəblərarası və dinlərarası tolerantlığın yayılması yönündə beynəlxalq səylərə öz töhfəsini verməkdədir", - deyə Allahşükür Paşazadə vurğulayıb.

## ŞKTR parlamentinin spikeri:

# "Azərbaycanla birlikdə türk dünyası naminə səylər göstərməyə hazırıq"

Şimali Kipr Türk Respublikasının (ŞKTC) parlament nümayəndə heyətinin bu il iyunun əvvəlinə Bakıya planlaşdırılan səfəri Azərbaycanla əlaqələrin inkişafına töhfə verəcək. Dost ölkəmizdə qarşıdan gələn görüşləri səbirsizliklə gözləyirik.




Bu sözləri AZƏRTAC-a müsahibəsində ŞKTR parlamentinin sədri Zorlu Töre deyib. O əlavə edib: "Ümid edirəm ki, digər türk dövlətləri də ŞKTR ilə parlamentlərarası əlaqələrin qurulmasında Azərbaycandan nümunə götürəcək".

Şimali Kipr parlamentinin spikeri Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyası ilə münasibətlərin qurulması istiqamətində siyasətini yüksək qiymətləndirib. O vurğulayıb: "Azərbaycanla birlikdə türk dünyası naminə səylər göstərməyə hazırıq".

Zorlu Töre qeyd edib: "Hesab edirəm ki, türk dövlətlərinin imkanlarından, iqtisadi gücündən ilk növbədə onların özlərinin xeyrinə istifadə edilməlidir. Əminəm ki, türk dövlətlərinin birliyi onları Aİ və ABŞ-dan qat-qat inkişaf etmiş dünyanın aparıcı iqtisadi mərkəzlərindən birinə çevirməyə imkan verəcək".

ŞKTR parlamentinin sədri bildirib ki, türk dövlətləri çox böyük resurslara malikdir və bu zəngin ehtiyatlar birlikdə bir çox məqsədlərə çatmağa və türk xalqlarının rifah halını yaxşılaşdırmağa kömək edə bilər.

Parlamentin spikeri Şimali Kipr Türk Respublikası ilə qarşılıqlı fəaliyyətin, o cümlədən mədəniyyət və təhsil sahələrində əməkdaşlığın geniş potensialının olduğunu da qeyd edib.

Zorlu Töre əmin olduğunu bildirib ki, Türkiyə və Azərbaycana qarşıdakı səfərlər çərçivəsində də üç qardaş ölkə arasında parlament əlaqələri davam etdiriləcək.

# Azərbaycan bu gün dünyada multikulturalizmin mərkəzlərindən biridir

**Dünyada geosiyasi vəziyyət gərginləşdikcə, insanların, eləcə də dövlətlərin, dinlər və millətlər arasında tolerant və multikultural dəyərlərin inkişaf etdirilməsinə və qorunmasına ehtiyac daha da artır. Çünki bütün bu münaqişə və müharibələrin kökündə qarşılıqlı anlaşılmazlıqlar və bir-birilərinə qarşı dözümsüzlük durur.**




Bunun qarşısının alınmasının yeganə yolu isə dünyada birgəyaşayışın mükəmməl forması olan, dini və milli dözümlülüyü özündə ehtiva edən multikulturalizmi və tolerantlığı təbliğat və təşviq yolu ilə inkişaf etdirməkdir. Bu gün Qərbin aparıcı dövlətlərinin multikulturalizmdən imtina etməsi fonunda Azərbaycanın multikulturalizm modelinin dünyada nümunəvi birgəyaşayış forması kimi qəbul olunması, ölkəmizin son illər bu sahədə gördüyü qlobal işlərin nəticəsidir. Müstəqilliyin ilk günlərindən ölkəmizdə dövlətdin münasibətlərinin, eləcə də milli məsələlərin qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı kimi çıxış edən Ümummilli Lider Heydər Əliyev elə bir konsepsiya ortaya qoydu ki, bütün problemləri sülh və anlaşma yolu ilə tənzimləmək mümkün oldu. Azərbaycanda multikulturalizm dövlət siyasətinin mühüm istiqamətinə çevrildi. Bu sadəcə müəyyən dövrü əhatə edən bir kampaniya deyil. Bu gün Azərbaycanda multikulturalizm dövlətimizin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasətidir. Bu ideya dövlətin xarici siyasət kursunda da kifayət qədər özünü əks etdirir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycanın vətəndaşları dini, irqi, siyasi, dil mənsubiyyətindən asılı olmayaraq, hamısı eyni hüquqa malikdir və onların hüquqları Azərbaycan tərəfindən qorunur və mühafizə olunur. Siz əmin ola bilərsiniz ki, biz bu məqsədlərimizə, bu prinsiplərimizə daim sadiq olacağıq və gələcəkdə də Azərbaycan vətəndaşlarının dini mənsubiyyəti, yaxud dil mənsubiyyəti, siyasi mənsubiyyətindən asılı olmayaraq, bir-birilə münaqişəyə girməsinə yol verməyəcəyik".

Multikulturalizm bütövlükdə dünyada müxtəlif etnoslara və dinlərə mənsub olan insanların mədəni müxtəlifliklərinin qorunmasına, inkişafına və etnik azlıqların və azsaylı xalqların inteqrasiyasına yönəldilmiş siyasətdir. Azərbaycanda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də uğurla inkişaf etdirir. Azərbaycan bu gün iki fərqli sivilizasiya arasında körpü rolunu oynamaqla, Şərq və Qərbin qovşağında öz nüfuzunu gücləndirməkdədir. İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə multikulturalizm alternativi olmayan həyat tərzinə çevrilib. Prezident hər zaman çıxışlarında multikulturalizmin Azərbaycanın dövlət siyasətinin tərkib hissəsi olduğunu vurğulayır: "Multikulturalizm bizim siyasətimizin tərkib hissəsidir. Azərbaycan bu gün dünyada multikulturalizmin mərkəzlərindən hesab edilir. Bunun tarixçəsi də var. Azərbaycan tarixən elə bir məkan olub ki, burada müxtəlif dinlərin və millətlərin nümayəndələri bir yerdə bir ailə kimi yaşamışlar".

2020-ci ildə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində respublikamızda yaşayan müxtəlif millətlərin nümayəndələrinin Ermənistanın işğal altında qalan torpaqlarımızın azad olunması uğrunda birgə vuruşması da göstərdi ki, bölünməz Azərbaycan dinindən, dilindən asılı olmayaraq bütün ölkə vətəndaşları üçün müqəddəsdir, doğmadır. Milli mənsubiyyətindən asılı olmayaraq bütün xalqların dini bayramlarının, ayinlərinin keçirilməsi də ölkəmizdə multikultural dəyərlərə göstərilən diqqətdir. İşğaldan azad olunan ərazilərimizdə ermənilər tərəfindən dağıdılan, viran qoyulan dini abidələrin bərpası, məscid və kilsələrin təmirinə diqqət göstərilməsi Azərbaycanın multikultural siyasətindən qaynaqlanan humanizmdir.

Ölkəmizin və xalqımızın sahib olduğu multikultural dəyərlərin, tolerantlıq ənənələrinin beynəlxalq ictimaiyyətə təqdim edilməsində dünyada maddi və qeyri-maddi irsin qorunmasında və təbliğində mühüm işlər görən Heydər Əliyev Fondunun da böyük əməyi var. Bu gün Heydər Əliyev Fondu Azərbaycanın multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı olduqca əhəmiyyətli layihələr həyata keçirir.

Bütün bunlar göstərir ki, Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti dövlətin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir. Azərbaycanın həyata keçirdiyi multikulturalizm siyasəti, bu çərçivədə gerçəkləşən layihələr beynəlxalq tribunalarda səsləndirilir, təqdir olunur və model kimi qəbul edilir. Məhz bu siyasətin davamlı və uğurlu inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) yaradıldı. Mərkəzin əsas məqsədi azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın, mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etməkdir. Mərkəz yaradılarkən onun qarşısında mühüm vəzifələrin icrası qoyulub.

Multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək və təbliği mexanizmini hazırlamaq, Azərbaycan Respublikasında mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarını müəyyənləşdirib gerçəkləşdirmək, mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək müxtəlif bölgələrə aid mədəni irsi öyrənmək, onların müasir dövrdə ahəngdar inkişafının təmin edilməsinə, vətəndaş cəmiyyətinin potensialından istifadə edərək tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanması prosesinə dəstək vermək mərkəzin qarşısında duran vəzifələr sırasındadır.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi artıq 10 ildir fəaliyyət göstərir və bu illər ərzində qarşıda duran vəzifələrin icrası istiqamətində mühüm addımlar atılıb və uğurlu nəticələr əldə olunub.

Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq" təşəbbüsünün real həllini tapması məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsi icra olunur. Bu gün layihə geniş coğrafiyanı əhatə edir. Hazırda bu layihə çərçivəsində ölkəmizin bütün universitetlərində və bütün ixtisaslar üzrə, eyni zamanda dünyanın 26 aparıcı universitetində "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləri tədris olunur. "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamı olaraq xarici və yerli universitetlərdə Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün qış və yay məktəbləri təşkil olunur. Ötən 10 il ərzində gənclərə nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunduğu ölkəmizdə real olaraq göstərmək məqsədilə 14 Beynəlxalq Multikulturalizm Qış və Yay Məktəbi təşkil edilib. Yay və qış məktəblərinin iştirakçılarına Azərbaycandakı multikultural vəziyyət, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında geniş məlumat verilir, multikulturalizmə dair müxtəlif aspektlərdə mühazirələr oxunur və onların etnik icmalarla görüşləri təşkil edilir. Zaman-zaman erməni ekstremistləri tərəfindən Azərbaycan ərazisində yaşayan həmvətənlərimizə - müxtəlif etnik köklərə mənsub Azərbaycan xalqlarına qarşı törədilən terrorun tarixi, miqyası, acı nəticələri və bundan sonra bu terrorun qarşısının alınması istiqamətində birgə əməkdaşlığın perspektivləri ilə bağlı dünya ictimaiyyətini məlumatlandırmaq məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Azərbaycan Milli Elmlər Akademiyası və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə həyata keçirdiyi "Terror multikulturalizmə qarşı" layihəsi çərçivəsində Azərbaycanda, eləcə də Avropa ölkələrində silsilə beynəlxalq elmi-praktiki konfranslar, simpoziumlar və forumlar keçirilib, televiziya proqramları, videoçarxlar və filmlər çəkilib, xarici dillərdə kitablar, broşürlər, bülletenlər, tarixi sənədlər çap olunub.

Azərbaycan tarixinin Qafqaz Albaniyası səhifəsini, bu mövzu ilə bağlı ölkə alimlərinin əldə etdikləri araşdırmaların nəticələrini geniş auditoriyaya çatdırmaq, eləcə də əsassız erməni iddialarını ictimailəşdirmək məqsədilə mütəmadi olaraq "dəyirmi masa"lar, mühazirələr, təqdimatlar və görüşlər keçirilib. Bu istiqamətdə 11 beynəlxalq elmi konfrans təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən "Bakı Prosesi" təşəbbüsü çərçivəsində keçirilən çoxsaylı beynəlxalq tədbirlər və layihələrdə, Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi hər zaman fəal iştirak edib, forumlar çərçivəsində "dəyirmi masa"lar və panel sessiyalar keçirib.

Mərkəz xalqımızın mədəni irsini öyrənib təbliğ etməyə çalışır. Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı kitabların çap olunmasına, BBMM-in təşkilatçılığı ilə keçirilən yerli və beynəlxalq konfransların materiallarının nəşrinə, həmçinin Azərbaycanda yaşayan etnik azlıqların dillərində kitabların hazırlanmasına xüsusi diqqət ayırır. Geridə qoyduğumuz 10 il ərzində Mərkəzin 40-dan artıq nəşri işıq üzü görüb.

BBMM-in Azərbaycan Televiziyası (AzTV) ilə birgə telelayihəsi olan "Multikulturalizm" verilişinin 58 buraxılışı yayımlanıb. Verilişlərdə BBMM-in fəaliyyəti - görülən işlər, həyata keçirilən layihələrlə yanaşı, bütövlükdə Azərbaycanın multikulturalizm siyasəti öz əksini tapıb. Həmçinin işğaldan azad olunmuş ərazilərimizdəki saxtalaşdırılan, dağıdılan və bərpa edilən mədəni irsimizə xüsusi diqqət ayrılıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi qarşısında duran vəzifələrin icrası çərçivəsində Azərbaycandakı tolerant və multikultural mühitin, eləcə də bütövlükdə mədəni və dini müxtəlifliklərin qorunması, təbliği və tədqiqi istiqamətində yerli və beynəlxalq səviyyəli konfranslar, "dəyirmi masa"lar, görüşlər və seminarlar keçirir. Bu tədbirlərdə Azərbaycanın və xarici ölkələrin tanınmış mütəxəssisləri, alim və ziyalılar iştirak edirlər.

Azərbaycan multikulturalizminin dünyada təbliğini daha uğurlu aparmaq üçün Bakı Beynəlxalq Multikulturalizm mərkəzi beynəlxalq əlaqələrinin genişləndirilməsinə də mühüm əhəmiyyət verir. Hazırda mərkəzin Azərbaycanın multikulturalizm siyasətinin xarici ölkələrdə təbliği işinə xidmət edən 9 filialı fəaliyyət göstərir.

Multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsidir. Prezident İlham Əliyevin multikulturalizmin və tolerantlığın inkişafına, möhkəmləndirilməsinə və təbliğinə xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkəmizdə etnomədəni münasibətlər özünün ən yüksək səviyyəsindədir. Son illərdə Azərbaycanda etnik mədəniyyətlərin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, müxtəlif konfessiyalara hörmət və ehtiramın güclənməsi istiqamətində xeyli iş görülmüşdür. Azərbaycanda müxtəlif xalqların nümayəndələri, fərqli dinlərin daşıyıcıları qarşılıqlı hörmət və anlaşma şəraitində birgə yaşayır, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Bu, Azərbaycanda formalaşmış vətəndaş həmrəyliyinin, sağlam etnik və dini münasibətlərin məntiqi nəticəsidir.

10 il ərzində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyəti, gördüyü işlər Azərbaycan multikulturalizminin inkişafına, dünyada təbliğinə mühüm töhfələr verib. Mərkəz mədəniyyətlərarası anlaşma, hörmət və əməkdaşlığın təşviqi, daha ahəngdar və inklüziv qlobal birliyin qurulmasına töhfə vermək üçün fəaliyyətini uğurla davam etdirir. Həm Azərbaycanda, həm də beynəlxalq arenada multikulturalizmin və mədəniyyətlərarası dialoqun təşviqi, daha inklüziv və harmonik dünya qurmaq üçün digər ölkələr və təşkilatlarla tərəfdaşlıq və əməkdaşlığın təşviqi üçün mərkəz rolunu oynayır.

Mərkəz dövlət başçısının etimadını daim doğrultmuşdur. Ən önəmlisi isə mərkəzin hər bir əməkdaşı inandığı ideyaları qorumuş və təbliğ etmişdir. Burada çalışan hər kəsin birinci amalı böyük Azərbaycan xalqına xidmət etmək və onun zəngin tarixi irsini və ənənələrini qorumaq olmuşdur. Qürurluyam ki, bu mərkəz yarandığı gündən mən də onun bir parçası olmuşam və Azərbaycan dövlətinin həyata keçirdiyi multikulturalizm siyasətinin həyata keçməsində iştirak edə bilmişəm. Ötən 10 il müddətində BBMM-in fəaliyyətinə daim diqqət və qayğı göstərmiş cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva başda olmaqla bütün ziyalılarımıza, alimlərimizə, ictimai və siyasi xadimlərimizə, dini və etnik icmaların rəhbərlərinə, fəaliyyətimizdə daim tərəfdaş olmuş qurumlara, ölkə xaricində olan dostlarımıza, mərkəzin fəaliyyətini daim işıqlandırmış media mənsublarına, tələbələrimizə minnətdar olduğumu bildirmək istəyirəm. Eyni zamanda başda Mərkəzin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev olmaqla Himayəçilik Şurasının bütün üzvlərinə və bütün əməkdaşlarımıza minnətdaram. Arzu edirəm ki, mərkəzin ömrü uzun olmaqla yanaşı, onun fəaliyyəti də daim aktual və keyfiyyətli olsun. Əmin olduğum bir fakt var ki, bu mərkəz var olduğu müddətcə Azərbaycan xalqına, dövlətinə və onun rəhbərliyinə xidmət edəcəkdir.

***Rəvan HƏSƏNOV,***
***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru***




# AZERBAIJAN COP29
## Yaşıl dünya naminə həmrəylik ili 2024



# BMT Beynəlxalq Ailə Gününü iqlim dəyişikliyi mövzusuna həsr edib

**1993-cü ildə BMT Baş Assambleyasının qətnaməsi ilə elan edilən və 1994-cü ildən bəri hər il mayın 15-də qeyd olunan Beynəlxalq Ailə Gününün məqsədi dünya ictimaiyyətinin diqqətini çoxsaylı ailə problemlərinə yönəltməkdir.**



AZƏRTAC xəbər verir ki, BMT 2024-cü ildə bu əlamətdar günü "Ailələr və iqlim dəyişikliyi" mövzusunda keçirir. Təşkilatın yaydığı müraciətdə qeyd olunur ki, iqlim dəyişikliyi və çirklənmənin artması ailələrin sağlamlığına və rifahına mənfi təsir göstərir, qasırğalar, quraqlıqlar və daşqınlar kimi iqlim hadisələri ilə daha da şiddətlənən ekstremal hava hadisələri çox vaxt məcburi köçkünlüyə, ailələr və fərdlər üçün dolanışıq vasitələrinin itirilməsinə səbəb olur. Bu cür hadisələr kənd təsərrüfatı məhsuldarlığına və suya çıxışa təsir edərək aclıq hallarını və yoxsulluğu artırır. Onlar kənd təsərrüfatı və balıqçılıq kimi iqlim təsirlərinə həssas olan sənayelərdə iqtisadi geriləməyə səbəb olurlar.

BMT qeyd edir ki, qətiyyətli tədbirlər görülməzsə, iqlim dəyişikliyinə uyğunlaşma və onun təsirlərinin yumşaldılması getdikcə çətinləşəcək və baha başa gələcək. Müraciətdə qeyd olunub: "Ailələrin təhsil, istehlak vərdişlərinin dəyişdirilməsi və təbliğat vasitəsilə gücləndirilməsi iqlimin mənalı və effektiv fəaliyyəti üçün çox vacibdir. Ailələr dəyərləri nəsillərə ötürür, buna görə də erkən yaşlardan ailələrə davamlı vərdişlər və iqlim şüurunun aşılanması vacibdir. Dairəvi iqtisadiyyat prinsiplərinin erkən uşaqlıq təhsilinə inteqrasiyası tullantıları minimuma endirməyə və təbii resursların bərpasına əsaslanan davamlı iqtisadi modelin qurulmasına kömək edə bilər. İstehlakçı və müdafiəçi qismində çıxış edən ailələr dairəvi iqtisadiyyata keçidi idarə edə bilərlər".

Təşkilat vurğulayıb: "2024-cü il Beynəlxalq Ailə Günü iqlim dəyişikliyinin ailələrə necə təsir etdiyi və onların iqlim fəaliyyətində oynaya biləcəyi rol haqqında məlumatlılığı artırmaq məqsədi daşıyır. Ailə və icma təşəbbüsləri vasitəsilə biz təhsil ala, məlumat əldə edə, habelə təlim və ictimaiyyətin iştirakı ilə iqlim fəaliyyətinə təkan verə bilərik".

# Beynəlxalq Enerji Agentliyinin qərargahında COP29-a həsr olunmuş tədbir keçirilib

**Parisdə Beynəlxalq Enerji Agentliyinin (BEA) qərargahında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına həsr olunmuş "COP29-BEA enerji keçidi yüksəksəviyyəli dialoq" adlı konfrans işə başlayıb.**



AZƏRTAC xəbər verir ki, toplantıda müxtəlif ölkələrin aidiyyəti nazirləri, COP 26, 27, 28 və 29-un prezidentləri, beynəlxalq təşkilatların rəhbərləri, Fransada akkreditə olunmuş müxtəlif ölkələrin səfirləri iştirak edirlər. Konfransda Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev, eləcə də digər nazirlər və COP prezidentləri çıxış edəcək, enerji keçidinə dair fikirlərini bölüşəcəklər.

# COP29-a hazırlıq işləri planauyğun davam edir




**Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) evsahibliyi edəcək ölkə seçilməsi ölkəmizin qlobal miqyasda güclü diplomatiyasının əlaməti və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun təsdiqidir.**

Bu ilin noyabr ayında on minlərlə insan iqlim dəyişikliyi nöqteyi-nəzərindən planetimizin gələcəyini müzakirə etmək üçün COP29-la bağlı Bakıya toplaşacaq. Bu yüksək nailiyyətdir. Bu, həm də Azərbaycanın BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlara sədrlik etdiyi zaman qazandığı təşkilatçılıq təcrübəsinə verilən qiymətdir. Bu, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana olan böyük ehtiramın və dəstəyin göstəricisidir.

COP29 regional təhlükəsizlik, enerji keçidi və "yaşıl artım"la bağlı Azərbaycanın baxışının təqdim olunması, Qarabağda yaşıl və ekoloji cəhətdən təmiz zonaların yaradılması, ölkəmizin külək və günəş enerjisi layihələri, Avropa İttifaqına qədər uzanan "yaşıl enerji" dəhlizlərinin gələcəyi və digər mövzular baxımından yanaşmasını təqdim etməklə qlobal siyasət müzakirələrinə öz töhfəsini verəcək.

Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi, budəfəki COP29-un mövzusunun maliyyə olmasına baxmayaraq, ev sahibi ölkə olaraq biz gündəliyə bir neçə əlavə edə bilərik və belə məsələlərdən biri sülh olacaqdır. Birincisi, ona görə ki, biz məhz sülh prosesi sayəsində COP29-a evsahibliyi etmək hüququ qazandıq. Çünki burada Ermənistan vetosunu aradan qaldırdı və biz də qarşılıqlı addımlar atdıq. Burada söhbət təkcə COP-dan getmir. Burada aramızda etimadın yaranmasından söhbət gedir. Çünki ən böyük çağırış qarşılıqlı etimadın olmaması və ya onun çox aşağı səviyyədə olmasıdır.

COP29-un keçirilməsi ölkəmizə həvalə edilməmişdən əvvəl də Azərbaycan dünyada ekoloji problemlərlə ciddi məşğul olan, iqlim dəyişikliyinin mənfi fəsadlarını azaltmağa çalışan ölkə kimi özünü tanıtdıra bilmişdir. Qeyd etmək yerinə düşər ki, bir zamanlar Bakının mərkəzində hamımızın tanıdığı "Qara şəhər" adlanan ərazi vardı. Onilliklər ərzində tamamilə çirklənmiş bu ərazi təmizlənərək Ağ şəhər layihəsi gerçəkləşdirildi. Yaşıllılıqlar, gül-çiçəklə əhatə olunan bu yer indi görənləri heyran edir. Başqa bir misal: bir zamanlar neft tullantıları ilə çirklənmiş Bibiheybət buxtasını indi "yaşıllıqlar vadisi" adlandırsaq, heç də səhv etmərik. Belə nümunələri istənilən qədər göstərmək mümkündür.

Qarabağı işğaldan azad etdikdən sonra ölkəmiz su resusları üzərində təxirəsalınmaz tədbirlər görür. Mənbəyini Azərbaycandan götürən əsas çaylar məhz o ərazilərdə yerləşdiyi, işğal dövründə ermənilərin su anbarlarını bağlayıb, su tələb olunan mövsümdə sudan məhrum etmələri, Şərqi Zəngəzurda və Qarabağda suvarılmalı olan yüz minlərlə hektar ərazini susuz qoymalarını heç cür gizlətmək və ya inkar etmək mümkün deyil.

Azərbaycan torpaqlarını azad etdikdən sonra su ehtiyatlarımız üzərində nəzarəti bərpa etdi. Hazırda həmin ərazilərdə planlaşdırılan böyük su anbarı və su kanalı tikintisi gerçəkləşdirilir. Bu fakt təkcə işğaldan azad edilmiş ərazilərə şamil edilmir. Eyni zamanda Azərbaycanın mərkəzi hissəsində həyata keçiriləcək böyük layihələr nəzərdə tutulub. Bu layihələr su itkisinin qarşısını almaqla hər bir damla suya qənaət etmək imkanı verəcək.

Qeyd edək ki, Ermənistanın COP29-un Azərbaycanda keçirilməsi ilə razılaşması, münaqişənin həll olunması istiqamətində aparılan sülh danışıqlarına da müsbət təsir göstərdi. Müsbət nəticənin nümunəsi kimi, sərhədin delimitasiya və demarkasiya prosesinin başlanmasını göstərmək olar.

COP29-un ölkəmizdə keçirilməsi və dünyaya təqdim olunması çox geniş imkanlar yaradır. Azərbaycan bu dəqiqə dünyanın diqqət mərkəzindədir. Elə bunun nəticəsisdir ki, ölkəmizə gələn turistlərin sayı durmadan artır. Bu ilin ilk üç ayında ölkəyə gələn əcnəbilərin sayında 24 faiz artım olduğunu nəzərə alsaq, ilin sonuna qədər bu rəqəmin üç milyondan çox olacağına şübhə etmək olmaz. Bu da COVID-dən əvvəlki illərlə müqayisədə ölkəyə daha çox turistin gəlməsi deməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı qəbul edərkən bir daha vurğulayıb ki, COP29-a hazırlıq məqsədilə bütün lazımi və zəruri işlər planauyğun davam etdirilir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# G7 ölkələrinin vətəndaş cəmiyyəti sammitində Azərbaycanın COP29-a hazırlığından danışılıb

**COP29 Təşkilat Komitəsinin üzvü Pərvanə Vəliyeva İtaliyada keçirilən G7 ölkələrinin vətəndaş cəmiyyəti sammitində "İnsan hərəkətliliyi və iqlim dəyişikliyi" adlı panel sessiyada çıxış edib.**



AZƏRTAC xəbər verir ki, P.Vəliyeva COP29-un yüksək səviyyədə təşkili və bütün maraqlı tərəflər arasında konsensusun əldə edilməsi üçün Azərbaycanın gördüyü işlərdən danışıb. Həmçinin, qlobal iqlim dəyişikliklərinə diqqət çəkərək, kiçik ada dövlətlərinin yox olmaq təhlükəsi ilə üzləşməsinin həyəcan təbili üçün əsas olduğunu bildirib. Eyni zamanda iqlim dəyişikliyi səbəbi ilə məcburi miqrasiya edən insanların hüquq və azadlıqlarının qorunmasının vacibliyini vurğulayıb: "Miqrasiya, əhali hərəkəti və iqlim dəyişikliyi ilə bağlı məsələlərdə maraqlı tərəflər öz səylərini birləşdirməli, iqlim dəyişikliyinin səbəb olduğu miqrasiyanın aradan qaldırılmasında beynəlxalq əməkdaşlıq gücləndirilməlidir".

P.Vəliyeva qeyd edib ki, miqrantların yerdəyişməsi ilə bağlı onların səhiyyə xidmətlərinə əlçatanlığı da təmin edilməlidir: "Təəssüflər olsun ki, əksər inkişaf etmiş ölkələrdə miqrantlar üçün tibbi sığorta təminatı hələ də yoxdur. Bu, miqrantlara qarşı açıq diskriminasiyanın bariz nümunəsidir və iqlimlə əlaqəli yerdəyişmə edən insanlar üçün əlavə çətinlik yaradır".

# *FAO:* "Azərbaycanın aqrar-sənayedə gördüyü innovativ işləri COP29-da dünyaya nümayiş etdirmək imkanı var"

**FAO Azərbaycan hökumətinin əsas tərəfdaşlarından biri kimi ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində görülən işlərə qoşulmaqdan məmnundur.**



AZƏRTAC xəbər verir ki, bunu BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat "Caspian Agro" və 29-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgilərinin açılış mərasimində deyib.

O vurğulayıb ki, keçirilən sərgi aqrar sahənin inkişafı baxımından önəmlidir.

"Sərgi heyvandarlıq, quşçuluq, bağçılıq da daxil olmaqla müxtəlif sektorları bir araya gətirir və kənd təsərrüfatında rəqəmsallaşmanın vacibliyini vurğulayır. Bu, yerli və beynəlxalq tərəfdaşlar arasında əlaqələr qurmaqla yanaşı, ekspertlər, özəl sektor, fermerlər, eləcə də ümumi istehlakçılar üçün öz biliklərini, təcrübələrini bölüşmək üçün əla imkan yaradır", - deyə Muhammad Nasar Hayat bildirib.

FAO nümayəndəsi qeyd edib ki, bu il noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində Azərbaycan aqrar-sənaye sektorunda gördüyü innovativ işləri dünyaya nümayiş etdirmək imkanı var.

# İqlimin qorunması bəşəriyyətin üzləşdiyi qlobal problemlərdən biridir

**Mayın 15-i dünyanın bir sıra ölkələrində Beynəlxalq İqlim Günü kimi qeyd edilir. AZƏRTAC xəbər verir ki, bu ekoloji bayramın təsis edilməsi meteoroloqların iqlimi indiki və gələcək nəsillərin rifahına təsir edən mühüm resurs kimi qorumaq çağırışına cavab idi. İqlimin qorunması bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərdən biridir.**

Qlobal istiləşmə, atmosfer qatında ozonun miqdarının artması, təbii fəlakətlər, planetdə hava şəraitinin dəyişməsi - bütün bunlar Yer kürəsinin iqliminin pisləşməsinə gətirib çıxarır. Nəticədə insanların qida, həyat və əmlak təhlükəsizliyinə, təbii ehtiyatların vəziyyətinə və dövlətlərin tarazlı inkişafına zərərli təsir göstərir. Təkcə son 35 ildə planetdə iqlim dəyişikliyi kəskin surətdə artıb və demək olar ki, hər il yeni temperatur rekordları müəyyən edilir.

Müasir elm Yer kürəsində temperatur yüksəlməyə davam edərsə, fəlakətli iqlim dəyişikliyinin nə qədər tez baş verəcəyi sualına cavab verə bilmir. Bununla belə, ekoloqların və meteoroloqların fikrincə, bəşəriyyət həmin dəyişiklikləri gecikdirməyə kifayət qədər qadirdir.

Planetdə geridönməz iqlim dəyişikliyinə səbəb olan əsas problemlər sırasında atmosferdə istixana qazlarının konsentrasiyasının artması dayanır. Həmin fenomen ilk dəfə qlobal səviyyədə 1992-ci ildə - Rio-de-Janeyroda keçirilən Yer Sammitində müzakirə edilib. 180-dən çox ölkənin nümayəndələri BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasını imzalayıblar. Həmin saziş dövlətlərin fəaliyyətlərinin atmosferdəki istixana qazlarını Yer kürəsinin iqlim sistemini qlobal



antropogen təsirlə təhdid etməyən səviyyədə sabitləşdirməyə yönəlmiş ümumi prinsiplərini müəyyən edirdi.

1997-ci ilin sonunda, Kiotoda (Yaponiya) keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının tərəflərinin üçüncü konfransında Konvensiyaya əlavə olaraq beynəlxalq sənəd - Kioto Protokolu qəbul edildi.

On il sonra 2007-ci ilin dekabrında Balidə (İndoneziya) iqlim dəyişikliyinə həsr olunmuş növbəti BMT konfransı keçirildi. Bu zaman 190-dan çox dövlətin nümayəndəsi dünya liderlərini ticarət və sənaye sektorunun karbon qazı emissiyalarını azaltmasını təmin etmək üçün lazımi tədbirlər görməyə çağıran beynəlxalq müqavilə imzaladılar.

Planetdə iqlimin qorunması ilə bağlı ümumi məqsədlərə nail olmaq üçün hər bir dövlətin töhfəsi vacibdir. Yerin iqliminin qorunması planetin hər bir sakinindən asılıdır. Hər kəsin üzərinə düşəni etməsi o qədər də çətin deyil. Bunun üçün, məsələn, avtomobildən daha az istifadə etmək, mənzilləri enerjiyə qənaət edən mənbələrlə işıqlandırmaq, ağacəkmədə iştirak etmək və yaşıllıqları qorumaq olar. Bütün bunlar kiçik şeylər kimi görünür. Lakin planetin əhalisinin sayına görə həmin "xırda şeylər" çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda iqlim dəyişiklikləri ilə mübarizədə həyata keçirilən fəaliyyəti beynəlxalq ictimaiyyət yüksək qiymətləndirir.

Azərbaycan ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin mənfi təzahürlərinin qarşısının alınmasına xüsusi önəm verir. Ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası elan olunması, həmçinin işğaldan azad edilmiş torpaqların 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsinin nəzərdə tutulması, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü, ardıcıl dövlət siyasətinin dərin məzmunundan xəbər verir.

Beynəlxalq ictimaiyyət Azərbaycanın iqlim dəyişmələrinin mənfi təzahürlərinin qarşısının alınması sahəsində həyata keçirdiyi fəaliyyəti yüksək qiymətləndirir. Məhz bu səbəbdən, iştirakçıların sayına, səviyyəsinə, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iştirakçı ölkələrin qərarı ilə 2024-cü ildə Azərbaycanda keçiriləcək.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) iqlim böhranının həlli yönündə çalışmaların əlaqələndirilməsi, onun aradan qaldırılması, strategiyaların işlənib hazırlanması və iştirakçı ölkələri bir araya gətirmək üçün çox önəmli beynəlxalq platformadır. Azərbaycan dövləti beynəlxalq ictimaiyyətin ona böyük hörmət və etimadının göstəricisi olan bu nüfuzlu sessiyanın yüksək səviyyədə təşkil edilməsi, ölkəmiz və bəşəriyyət üçün uğurlu nəticələrlə yekunlaşması naminə bütün zəruri tədbirləri görməkdədir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## UNICEF-lə gələcək əməkdaşlıq məsələləri müzakirə edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Uşaq Fondu (UNICEF) arasında uğurlu əməkdaşlıq təcrübəsi formalaşıb. Əməkdaşlığın davam etdirilməsi və genişlənməsi məqsədilə iki illik dövr üzrə görüləcək birgə işləri müəyyən edən yeni Fəaliyyət Planının layihəsi hazırlanıb.**

Bu barədə nazirlikdə UNICEF-in Azərbaycandakı yeni nümayəndəsi Saca Faruq Abdullah ilə keçirilən görüşdə bildirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ölkəmizdə sosial sahədə, habelə uşaq qayğı sisteminin gücləndirilməsi istiqamətində son illər aparılan islahatlar barədə məlumat verib. "Himayədar ailə" qayğı modelinin tətbiqi işləri, reinteqrasiya tədbirləri, uşaqlara yönələn reabilitasiya yönümlü sosial xidmətlərin keyfiyyətinin və həcminin artırılması üçün atılan addımlar qeyd edilib.

Həmin sahələrdə, habelə sosial işçilərin bacarıqlarının artırılması üçün aparılan işlərdə, bunun üçün müvafiq təlimlərin, təcrübə səfərlərinin təşkilində, habelə əlilliyi olan gənclərin məşğulluq imkanları və bacarıqlarının artırılmasının dəstəklənməsində UNICEF-lə əməkdaşlığın, birgə layihələrin əhəmiyyəti vurğulanıb.

Hazırlanmış yeni Fəaliyyət Planı layihəsində dövlət uşaq müəssisələrindən uşaqların ailələrinə reinteqrasiyası, uşaqların həmin müəssisələrə düşməsinin qarşısının alınması və s. üzrə əməkdaşlıq istiqamətlərinin əsas yer tutduğu qeyd edilib.

S.F.Abdullah ölkəmizdə sosial sahədə həyata keçirilən islahatları, uşaq qayğı sisteminin gücləndirilməsi istiqamətində görülən işləri maraqla izlədiklərini və müsbət dəyərləndirdiklərini, nazirliklə əməkdaşlığın daim genişlənməsinə önəm verdiklərini, bunun üçün səylər göstərəcəyini vurğulayıb.

Görüşdə birgə fəaliyyət istiqamətlərində görülən işlər və gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

## "Azərbaycanda finteks sənayesini inkişaf etdirəcəyik"

**"Qlobal fintex bazarının həcmi ötən il 300 milyard dollara yaxın olub. Cari ildə bu rəqəm 340 milyard dolları ötəcək".**

AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəhbəri icraçı direktoru Vüsal Qasımlı Bakıda keçirilən "Fintex Sammit - 2024" tədbirində deyib.

"Milyard dolları aşan fintekslər əsasən ABŞ, Britaniya, Hindistan və Çindədir. 2024-2028-ci illərdə finteks strategiyası ilə bağlı məsələlər müzakirə olunmaqdadır. Strategiya qəbul olunanda biz hədəfləri müəyyənləşdiririk. İnanıram ki, Azərbaycanda çox uğurlu şəkildə finteks sənayesini inkişaf etdirəcəyik. Bunun üçün ölkəmizdə bütün lazımi şərait yaradılıb", - deyə V.Qasımlı qeyd edib.

# Asiya nəhəngi Cənubi Qafqaz lideri ilə iqtisadi əlaqələrin genişlənməsində maraqlıdır

**Xəbər verildiyi kimi, mayın 14-də Prezident İlham Əliyev Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.**

Görüş zamanı vurğulanmışdır ki, son dövrlər Çinlə Azərbaycan arasında münasibətlər daha da genişlənir. İki ölkə arasında müxtəlif səviyyələrdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunur və iqtisadi-siyasi sahədə əlaqələr dərinləşir. Xüsusilə iki ölkənin dövlət başçıları arasında yaranan dostluq əlaqələri bu münasibətlərin daha da inkişafına pozitiv təsir göstərir. Çinin özünün ən böyük qlobal layihələrindən olan "Bir kəmər, bir yol" layihəsinin təqdimat konfransına Prezident İlham Əliyevi dəvət etməsi bunun göstəricisidir.

Ümumiyyətlə, son dövrlər Çinlə Azərbaycan arasında bütün sahələr, o sıradan iqtisadi əlaqələr üzrə dinamik inkişaf edir. Ancaq iqtisadi əlaqələrdən əvvəl hər iki ölkə üçün həyati əhəmiyyət kəsb edən bir siyasi məsələdə həmişə həmrəylik nümayiş olunub. Bütün beynəlxalq tədbirlərdə Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Bu, Ermənistanla Azərbaycan arasındakı keçmiş münaqişənin səbəbini dünyaya çatdırmaqda bizim üçün önəmli idi.

Təəssüf ki, bu gün ÇXR-in Tayvan problemi hələ də həll edilməmiş qalır. Qərb üzdə "Vahid Çin" siyasətini dəstəkləsə də, reallıqda fərqli qərarlar qəbul edir. Bu yaxınlarda ABŞ tərəfindən Tayvana silah satışı üçün vəsait ayrılması buna bariz nümunədir. Azərbaycan isə həmişə olduğu kimi, "Vahid Çin" siyasətinə sadiqdir və bütün beynəlxalq platformalarda ÇXR-in ərazi bütövlüyünü dəstəkləyir. Dövlətimizin başçısı Çinin nümayəndə heyətini qəbul edərkən bu məsələyə bir daha toxunaraq ölkəmizin ÇXR-in ərazi bütövlüyünü dəstəklədiyini bildirərək qeyd etmişdir ki, dünyada hələ də separatizmin dəstəklənməsi halları və ikili standartlar mövcuddur.

Təbii ki, iki ölkə arasındakı münasibətlərdə əsas hədəf iqtisadi əlaqələri genişləndirməkdir. Xoş münasibətlər ölkələrimiz arasında iqtisadi və nəqliyyat sahələrində əlaqələrin dərinləşməsinə imkan yaradıb. Çinlə ölkəmiz arasında hazırda bərpaolunan enerji vasitələrinin istehsalı, Azərbaycanda elektroavtobusların və elektroavtomobillərin istehsalı üçün investisiyanın qoyulması müzakirə edilir.

Azərbaycanla Çin arasında iqtisadi əlaqələrdə ən mühüm məsələ "Bir kəmər, bir yol" layihəsində əməkdaşlıqdır. Bu layihə 150 ölkəni əhatə edir. Ancaq Azərbaycan layihənin icrasında Çin üçün ən önəmli ölkədir. Çünki biz coğrafi və nəqliyyat infrastruktur imkanlarına görə Orta dəhlizin açar ölkəsiyik. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra



Azərbaycanın tranzit ölkə kimi beynəlxalq əhəmiyyəti daha da artıb.

Azərbaycan Bakı Ələt Dəniz Limanının ötürücülük gücünün 25 milyon tona çatdırılması üçün görülən işlərin mühün hissəsini tamamlamaq üzrədir. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin Gürcüstan ərazisində genişləndirilməsi işləri isə başa çatıb.

"Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan bir sıra strateji nəqliyyat layihələrinin təşəbbüskarı kimi çıxış edir. Ölkəmizin maliyyə dəstəyi ilə inşa edilmiş BTQ dəmir yolu 2017-ci ildə istismara verilib. Digər mühüm layihə isə Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. Bu limanın yanında yerləşən və mühüm infrastruktura malik olan Ələt Azad İqtisadi Zonası yerli və xarici investor cəlb etməklə yüksək əlavə dəyərli, ixracyönümlü məhsul və xidmətlər istehsalını təşkil edəcək, Azərbaycanın tranzit imkanlarını genişləndirəcək, yükdaşımaları artıracaq. Sosial-iqtisadi inkişaf strategiyamızda da ölkəmizin regional haba və e-ticarət mərkəzinə çevrilməsi nəzərdə tutulur.

Bundan əlavə, Orta dəhliz ölkələri arasında tranzit daşımalara aid məlumatların öncədən mübadiləsini təmin edən elektron gömrük qeydiyyatı portalının yaradılmasına başlanıb. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, bu ilin mart ayında 6 ölkə arasında protokol imzalanıb. Protokola əsasən, Orta dəhliz boyu malların hərəkət edəcəyi ölkələrin sistemə daxil edilməsi, tranzit məsələlərinin maksimum sadələşdirilməsi hədəflənib.

Zəngəzur dəhlizinin açılması isə Çinin Avropa və Türkiyə üzərindən Asiya, həmçinin Şimali Afrika ölkələri ilə ticarət əlaqələrini genişləndirməsinə əlavə imkanlar yaradacaq. Belə ki, ilkin hesablamalara görə, Zəngəzur dəhlizi Orta dəhlizin daşınma qabiliyyətini ildə 8-10 milyon tona qədər artırmağa imkan verə bilər.

Onu da vurğulayaq ki, görülən tədbirlər sayəsində son üç ayda Trans-Xəzər Beynəlxalq Tranzit Marşrutu ilə Çindən 13 blok qatarı göndərilib və bunun nəticəsində həmin konteynerlərin Gürcüstan limanlarına çatması cəmi 12 gün çəkib. Məlumat üçün bildirək ki, əvvəllər bu müddət təxminən 40-50 gün idi.

Xatırladaq ki, Orta dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Görülən işlər öz müsbət nəticəsini verir, ticarət tərəfdaşlarımızın bu marşruta olan güvəni artır. Bunun sayəsində Orta dəhliz üzərindən yükdaşımanın dinamikası yüksələn xətlə davam edir. Təkcə 2023-cü ildə Orta dəhliz vasitəsilə 2 milyon 750 min ton yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 64 faiz çoxdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Əsas kapitala 5,2 milyard manat investisiya yönəldilib

**2024-cü ilin yanvar-aprel aylarında əsas kapitala 5230,4 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz çox investisiya yönəldilmişdir.**

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 6,2 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 15,2 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 2828,9 milyon manatı və ya 54,1 faizi məhsul istehsalı sahələrinə, 1979,3 milyon manatı (37,8 faizi) xidmət sahələrinə, 422,2 milyon manatı (8,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 4210,1 milyon manatını və ya 80,5 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 3687,6 milyon manatı və ya 70,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## Neft bahalaşıb

**Londonun ICE ("Inter-Continental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,61 dollar artaraq 82,99 dollar olub.**

AZƏRTAC xəbər verir ki, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,63 dollar artaraq 78,65 dollar təşkil edib.

# Məktəblilər biznes bilgilərinə yiyələnirlər

### Layihəni BP və tərəfdaşları maliyyələşdiriblər

**BP-nin tərəfdaşları adından həyata keçirdiyi növbəti sosial layihə orta məktəblər üçün nəzərdə tutulmuşdur. Şirkət bu təhsil layihəsinin artıq uğurla tamamlandığını elan etmişdir.**




Layihənin məqsədi şagirdlərə sahibkarlıq və biznes liderliyinin əsaslarını aşılamaqda məktəblərə dəstək verməkdir. Layihəyə səkkizinci və doqquzuncu sinif şagirdləri üçün biznes və sahibkarlığın əsas prinsipləri haqqında təhsil materiallarının hazırlanması daxil idi. Bundan əlavə, proqram çərçivəsində kurs təlimatçılarına, eləcə də məktəb müəllimlərinə təlim keçmək məqsədilə kitabça da tərtib olunmuşdur.

Layihə çərçivəsində Azərbaycanın müxtəlif yerlərindən təxminən 34 müəllim təlimçi kimi hazırlanmışdır. Onlar da öz növbəsində ölkə üzrə təxminən 600 STEAM müəlliminə təlim keçərək, onları məktəblilərə sahibkarlığın əsaslarını öyrətmək üçün lazımi biliklər və effektiv pedaqoji vasitələrlə təmin etmişlər. Təlim proqramlarında sahibkarlıq düşüncə tərzi və bacarıqlarının inkişaf etdirilməsi, biznes modellərinin inkişafı, biznes ideyalarının hazırlanması, sosial sahibkarlığın tədqiqi, maliyyə savadlılığı, yaradıcı düşüncə və problemlərin həlli kimi mövzular əhatə olunmuşdur.

Daha sonra təlim keçmiş müəllimlər əldə etdikləri bilgiləri ölkənin 51 rayonunda 150 STEAM məktəbində ümumilikdə təxminən 8 min şagirdə ötürmüşlər. İnteraktiv sessiyalar vasitəsilə şagirdlər biznes planlarının hazırlanması, bazarların təhlili və biznes imkanlarının müəyyənləşdirilməsi üzrə xüsusi təlim keçmişlər.

BP-nin Xəzər regionunda vitse-prezidenti Bəxtiyar Aslanbəyli bununla bağlı belə demişdir: "Layihənin məqsədi məktəbliləri müasir və innovativ sahibkarlığın əsasları və təməl bilikləri ilə tanış etməyə başlamaqdır. Bu, həm də onların dəyişikliklərə və innovasiyalara rəhbərlik etmək, ideyalar irəli sürmək və onları həyata keçirməyin praktiki yollarını tapmaqda öz bacarıqlarına inamını artırmağa yönəlib. Bunlar sürətlə dəyişən dünyada karyera yolunu seçmək və gələcəyini qurmaq üçün hər bir şagirdin ehtiyacı olacağı bacarıqlardır. Ümid edirik ki, layihə çərçivəsində təlim keçmiş müəllimlər öz şagirdlərinə gələcək karyera hədəflərini müəyyən etmək üçün lazım olan inamı və bu məqsədlərə çatmaq həvəsini aşılaya biləcəklər".

Birillik bu layihənin ümumi dəyəri 74min 450 manat təşkil etmişdir. Layihə Azərbaycan Gənclərinin Nailiyyəti (Junior Achievement Azerbaijan) İctimai Birliyi tərəfindən icra olunmuşdur.

Xatırladaq ki, BP "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları - TPAO, SOCAR, SGC, LUKOİL, NİCO, MOL, "Equinor", İNPEX, "ExxonMobil", İTOCHU, "Eni", "TotalEnergies", "ONGCVidesh"lə birlikdə ölkəmizdə əsas əməliyyatlarından əlavə, bir çox sosial proqramlar da həyata keçirir. Belə ki, şirkət ən çox töhfə verə biləcəyinə inandığı sahələrə yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürüb. Bu sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səylər insanlara əhəmiyyətli faydalar gətirib.

Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə ümumilikdə 110 milyon dollardan çox vəsait xərcləyib.

Onu da qeyd edək ki, indiyədək BP öz tərəfdaşları ilə birlikdə Azərbaycanda icraçısı olduğu neft, qaz və ixrac layihələrinə təxminən 85 milyard dollar sərmayə yönəldib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

**Dövlət Statistika Komitəsi xəbər verir...**

## Yanvar-aprel aylarında ÜDM istehsalı 4,3 faiz artıb

**2024-cü ilin yanvar-aprel aylarında ölkədə 38 milyard 181,9 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,1 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 7,7 faiz artmışdır. ÜDM istehsalının 40,3 faizi sənaye, 9,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,0 faizi tikinti, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 20,0 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,1 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 3748,1 manata bərabər olmuşdur.

## İqtisadi sektorda işləyənlərin orta aylıq nominal əməkhaqqı 985 manatdan çoxdur

**Aprelin 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 748,9 min nəfər olmuşdur. Onlardan 899,8 min nəfəri iqtisadiyyatın dövlət, 849,1 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**

Muzdla işləyənlərin 19,0 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 14,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2024-cü ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,3 faiz artaraq 985,3 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Yanvar-mart aylarında nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 7,9 miloyn ton olmuşdur

**Cari ilin yanvar-mart aylarında nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 7 milyon 980,6 min ton, yük dövriyyəsi isə 3 milyard 233,8 milyon ton-km olmuş, əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 5,3 faiz və 9,0 faiz artım müşahidə edilmişdir.**




"Şərq-Qərb" nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 3 milyon 763,3 min ton, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə - 1 milyon 966,9 min ton, "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə - 2 milyon 432,1 min ton, "Şimal-Qərb" nəqliyyat dəhlizi ilə - 1 milyon 698,9 min ton, "Cənub-Qərb" nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi isə 86,3 min ton təşkil etmişdir. Yüklərin 3 milyon 607,4 min tonu və ya 45,2 faizi dəmir yolu nəqliyyatı, 2 milyon 527,5 min tonu və ya 31,7 faizi avtomobil nəqliyyatı, 1 milyon 845,7 min tonu və ya 23,1 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Nəqliyyat dəhlizləri vasitəsilə daşınmış yüklərin 60,2 faizini və ya 4 milyon 808,0 min tonunu tranzit yüklər təşkil etmişdir.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

## Azərbaycan əsgəri xalqımıza Zəfər dolu anlar yaşatdı

**Qarabağın işğaldan azad edilməsi uğrunda başlayan Vətən müharibəsi bir gün də olsun səngimədi, ara vermədi. Ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında hər gün düşməni geri sıxışdıraraq 30 ilə yaxın işğalda qalmış torpaqlarımızı addım-addım, ev-ev, kənd-kənd azad etdi.**



Sözün həqiqi mənasında, biz həmin günlərdə tariximizin ən şərəfli və ən çətin anlarını yaşadıq. Cəbhədən bir-birindən uğurlu xəbərlər gəlirdi. Ordumuzun zabit və əsgərləri erməni işğalçılarını məğlub edərək irəliləyir, xalqımıza Zəfər sevincini yaşadırdı.

Həmin çağlar ona görə şərəfli idi ki, insanlarımızın intizarla gözlədiyi gün gəlmişdi. Ermənilər beynəlxalq təşkilatları saymayaraq cəbhədə iyirmi səkkiz ildən bəri davam edən atəşkəs rejimini pozmuşdular. Qarabağda, eləcə də başqa rayonlarda silahlar gurlamışdı. Erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlamışdı. Torpağını, xalqını sevən cəsur oğullar silaha sarılaraq cəbhə bölgələrində erməni işğalçılarına qarşı vuruşurdular. Döyüşürdülər ki, erməni tapdağında qalmış torpaqlarımızı azad etsinlər. Uzun illər yurdlarının həsrətini çəkən insanlar doğma ocaqlarına dönsünlər, həsrətə, intizara son qoyulsun. Günümüzün bu şərəfli anları elə şərəfli hadisələrlə də yadda qalacaq. Tarixin pozulmaz səhifələrinə də elə bu şəkildə, bu formada, bu biçimdə düşəcək. Azərbaycan Ordusunun zabit və əsgərləri üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirdiklərinə görə həmin günlərdə yaşanan tarixi hadisələri gələcək nəsillər böyük ehtiramla xatırlayacaqlar! Cəsur oğulları hörmətlə yad edəcəklər.

### Mübariz İbrahimov hünəri ilə düşmənə qalib gəldi

Qarabağ uğrunda qanlı döyüşlər davam etdikcə zəfər zəfərə, uğur uğura calandı. Hər gün qapımızı cəbhədən gələn qələbə ətirli xəbərlər döydü. Ekranlardan, efirlərdən eşitdiyimiz məlumatlardan biri könlümüzü lap çox tellendirdi, qəlbimizdə güclü coşqu yaratdı. Xəbərlər proqramında məlumat verdilər ki, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 18 iyun 2010-cu ildə şəhid olduğu post da erməni işğalçılarından azad olunub. İştirakçılardan birinin dediyinə görə, bu mövqe uğrunda nə az, nə çox düz yeddi saat qanlı döyüş gedib. Axır ki, düşmən güclü zərbələrlə məhv edilib, post yağı tapdağından azad olunub.

Bu xəbərə hamımız sevindik, ürəyimiz açıldı. Yəqin ki, eşitdiyimiz bu məlumatdan Mübariz İbrahimovun göylərdə narahatcasına dolaşan ruhu da rahatlıq tapdı. 2010-cu ilin isti yay günlərində xalqımızın qeyrətli oğlu Mübariz bu istiqamətdən düşmən üzərinə heç nədən və heç kimdən qorxmadan təkbaşına getmişdi. Getmişdi ki, işğalçıları məhv etsin, onlara Azərbaycan əsgərinin gücünü, qüdrətini göstərsin. Necə lazımdırsa da gücünü göstərmişdi. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov bu cəsarətli addımı ilə qəhrəmanlıq tariximizə yeni səhifələr yazmışdı. Ondan sonra neçə-neçə cəsur oğullarımız onun açdığı bu şərəfli yolu elə şərəflə də davam etdirmişdilər.

Mübariz qəsbkarlarla son damla qanı qalanadək vuruşmuşdu. Təkbaşına başladığı bu əməliyyatda erməni işğalçılarının xeyli canlı qüvvəsini məhv etmişdi. Cəsarəti və hünəri ilə ölümə qalib gəlmişdi. Onun silahdaşları elə qəhrəmanın bir vaxtlar getdiyi yolla, açdığı cığırla, saldığı izlə yağıların üzərinə əks-hücuma keçmişdilər. Mübariz İbrahimovun yarımçıq qalmış döyüş yolunu həmin postdan üzü Qarabağa tərəf davam etdirmişdilər. Onun adına layiq hünər və igidlik göstərmişdilər. Mübarizin şəhid olduğu yerdə qürur duya-duya, sevinə-sevinə bayrağımızı yüksəltmişdilər. Qəhrəmanı, qəhrəmanlığı yaşatmış, ona əbədi ömür vermişdilər.

"Mübariz postu"nun azad olunmasını özündə əks etdirən həmin qürurverici kadrlara baxdıqca Azərbaycan Ordusu, Azərbaycan əsgəri ilə fəxr etdik. Doğrudan da, Vətən müharibəsinin davam etdiyi günlərdə ordumuzun zabit və əsgərləri yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə cəsarətlə, hünərlə vuruşdular, qəhrəmanlıq tariximizə yeni səhifələr yazdılar. Müharibənin ilk günlərindən Mübariz İbrahimovun şəhid olduğu postu ermənilərdən azad edən igid əsgərlərimiz sonrakı döyüşlərdə daha da böyük uğurlar qazandılar.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

● Qəhrəmanlar unudulmur

## Onlar ölümə getdiklərini bilirdilər

### Lakin vətən sevgisi Bünyad kimi cəsur oğulların geri çəkilməsinə imkan vermirdi

**Otuzillik ayrılıqdan sonra tarixi torpaqlarımıza -Qarabağa, Şərqi Zəngəzura üz tutan hər kəsin ilk səfəri müqəddəs yurd yerlərini ziyarət etmək olur. İnsanlar birinci fürsətdə düşmənin viran qoyduğu doğma kənd-kəsəyə baş çəkirlər. Belə dar macalda görülən təxirəsalınmaz işlərdən biri də vaxtilə həmin ərazilərin müdafiəsində canını, sağlamlığını qurban vermiş şəhidlərin qəbirlərini axtarıb tapmaq, qəhrəman qazilərin xatirəsini əbədiləşdirməkdir.**







Bir neçə gün öncə Ağdamın Qalaycılar kəndinin sakinləri də yaşayış məntəqəsinin girəcəyində silahdaşlarının şəkli və ad-soyadı həkk edilmiş lövhələr qoyublar. Göründüyü kimi, el-oba qəhrəmanlarını unutmur, imkan yarandıqca onların əziz xatirələrinə ehtiram nümayiş etdirməyi özünə borc bilir. Həmin plakatların birində Vətən müharibəsi qazisi, igid döyüşçü mərhum Bünyad Quliyevin əksi diqqət çəkir. Həmişəki kimi qorxmaz, qələbəyə inamlı, məğrur, düşmənin bir gün "dəmir yumruq"la əziləcəyinə əmin şəkildə...

O, Qarabağ acılarını - daşnakların namərd xislətini münaqişənin başlanğıcında, hələ buna qədər gizli hazırlıqlardan dadmışdı. Vaxtilə Ağdərədə 6-7 ermənin bir azərbaycanlını vəhşicəsinə döydüklərini görəndə, onları şil-küt edib yaralı soydaşını öz maşını ilə aradan çıxarmışdı. Gəncliyi şahə qalxan at belində keçən, qolu qüvvətli bu igidi Kolanı elində hamı cəsarətli, millətin, vətənin təəssübünü çəkən şəxs kimi tanıyır, hörmətini saxlayırdı. Yaxşı futbolçu idi. Xankəndidə separatçıların meydanlara toplaşıb ərazi iddiaları irəli sürməsini eşidəndə, erməni quldurlarının sərhədboyu qəfil basqınlarını görəndə daha futbol oynamaq zamanı olmadığını, bu məkrli oyunlara qarşı çıxmağın zəruriliyini anladı. O zaman nizami ordu formalaşmadığından, yurd-yuvanı, elin namusunu qoruyacaq vətənpərvərləri təşkilatlandırdı. Əvvəlcə qardaşı Nüsrət Quliyevlə birlikdə futbol komandasındakı 28 cavanı başına toplayıb özünümüdafiə dəstəsi yaratdı. Əlinə silah alıb idmançı dostları ilə eyni sırada - doğma kəndin və əhalinin keşiyində dayandılar. Qalayçılar döyüş meydanına çevriləndə düşmən üzərinə yeriyən könüllülərin önündə getdi. 1989-1991-ci illərdə kənd özünümüdafiə dəstəsinin komandiri, sonra isə Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin Ağdam özünümüdafiə batalyonunun ən fəal döyüşçüsü oldu. Kiçik qardaşı Fikrət də onlara qoşuldu.

1992-ci ilin 31 yanvar Fərrux, 4 mart Qazançı, 21 iyul Canyataq-Gülyataq döyüşlərində Quliyev qardaşlarının necə qorxmazcasına savaşdıqlarının çoxsaylı şahidləri var. Birinci Qarabağ müharibəsi qaziləri Elman Bayramov, Pənah Məmmədov, Xanlar İsmayılov və başqaları Bünyad, Nüsrət və Fikrətin hər zaman hücumun önündə olduqları, Vətən uğrunda sinələrini qabağa verdikləri barədə konkret faktlarla danışırlar.

Xanlar İsmayılov deyir: "Bünyad və qardaşları bəzən ölümə getdiklərini bilə-bilə, düşmənin ağır texnikasının qarşısına adi avtomatla çıxırdılar. 2 fevral 1992-ci il tarixində birgə döyüşürdük. Azad etdiyimiz Fərrux kəndinə gecəylə yenidən soxulan erməni birləşmələri bizi mühasirəyə alıb sağ ələ keçirməyə çalışırdılar...

Bünyad ayağından vurulduğuna görə yeriyə bilmirdi. Əlindəki qumbaranı açıb gözləyirdi ki, özü ilə bərabər yaxınlaşan düşməni də məhv etsin. Köməyə gəldiyimi görüb çox yalvardı ki, vaxt varkən uzaqlaşım. Onu qoyub gedə bilməyəcəyimi qəti şəkildə bildirdim və pulemyotla düşmənin başını qaldırmasına imkan vermədim, o isə qanı axa-axa, arxası üstə sürünərək mühasirədən çıxa bildi. Bünyad aslanlar kimi cəsur ürəkliydi, elə oğullar dünyaya tək-tək gəlir".



O, təkcə döyüş meydanında yox, başqa vaxtlarda da əsl insanlıq, cəsurluq, fədakarlıq nümayiş etdirib, dara düşənlərə kömək əli uzadıb. Göldə batan iki nəfərin - Tərtər rayonunun Əskipara və Səhləbad kəndlərindən olan Azər və Ədalətin həyatını qurtarıb, özlərinin söylədikləri kimi, onlara ikinci ömür bəxş edib.

B.Quliyev bu dünyada cəmi 54 il yaşadı - 1958-ci il dekabrın 15-dən 2012-ci il sentyabrın 28-dək... İşğaldakı yurd-yuvanın fəryadına və həsrətə ürəyi dözmədi, infarktdan dünyasını dəyişdi. Niyə 54 il, bəs bu müddət ərzində yaddaşların, ürəklərin Bünyad ünvanlı dua və minnətdarlıqları, 34 il sonra doğma kəndində yaradılan xatirə kompleksi həmin ömrün davamı və əbədiyyətə calanacaq körpüsü deyilmi?

*Qurban MƏMMƏDOV*

● Tarix yazan oğullar

## Vətənin harayına hay verən igid döyüşçü

**Ömrünün baharındaydı. Arzularla, ümidlərlə dolu gələcəyinin xəyalları ilə yaşayırdı. Fikrət Əli oğlu Hacıyev 1964-cü il mayın 19-da Goranboyun Qızılhacılı kəndində dünyaya göz açmışdı. 1978-ci ildə doğma kəndlərində səkkizinci sinfi bitirdikdən sonra Gəncə texniki-peşə məktəbində elektrik ixtisasına yiyələnmişdi.**



Goranboy rayon Hərbi Komissarlığı tərəfindən 1982-ci ildə əsgəri xidmətə çağırıldı. O, hərbi xidmətini Ufa şəhərində keçirdi. İntizamlı əsgər oldu. Elə buna görə də komandanlıq tərəfindən dəfələrlə mükafatlandırıldı. Əsgərlik müddətində hərbi texnikanın sirlərini mükəmməl öyrənməyə səy göstərdi.

Hərbi xidməti başa vurub Vətəninə qayıtdı. Fikrət Hacıyev Bakı Kooperativ Texnikumuna daxil oldu. Təhsilini başa vurduqdan sonra doğma kəndi Qızılhacılıya döndü. İxtisası üzrə əmək fəaliyyətinə başladı.

Onun sadə, sakit həyat yolunun nizamını müharibə pozdu. 1990-cı illərin əvvəllərində Qarabağda, Şərqi Zəngəzurda işğalçı, təcavüzkar ermənilərin amansız hücumlarının qarşısını almaq, həmin ərazilərdə yaşayan soydaşlarımızın imdadına çatmaq üçün savaşa atılan mərd oğullardan biri də Fikrət Əli oğlu Hacıyev oldu. O, 1991-ci ildə könüllü olaraq cəbhəyə yollandı. Vətənin harayına hay verən Fikrət Hacıyev özü kimi qəhrəman Azərbaycan övladları ilə birlikdə ölüm-dirim savaşına qoşuldu. Fikrət Goranboy özünümüdafiə batalyonunun tərkibində Şəfəq, Zeyvə, Qaraçinar və digər yaşayış məntəqələrinin müdafiəsində fəal iştirak etdi. Onun son döyüşü 1992-ci il mayın 5-də oldu. Düşmən yenə qəfil hücuma keçmişdi. Ağır döyüş gedirdi. Fikrət Hacıyev bir neçə erməni quldurunu məhv etdi. Özü isə Vətən uğrunda qəhrəmancasına şəhid oldu. Qızılhacılı kənd qəbiristanlığında dəfn edildi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Fikrət Əli oğlu Hacıyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verildi. Goranboy rayonunda büstü qoyuldu. Ballıqaya kənd orta məktəbi qəhrəman döyüşçünün adını daşıyır.

Fikrət Hacıyev kimi qəhrəmanların adları doğma Azərbaycan xalqının qəlbində əbədiləşdi.

Birinci Qarabağ müharibəsində sinələrini düşmən güllələrinə sipər edən, Vətən torpaqları uğrunda döyüşlərdə hünər göstərən, cəsurluq, igidlik nümayiş etdirən Azərbaycanın mərd, qorxmaz, vətənsevər övladlarının arzusu 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində böyük Zəfərimizlə reallaşdı. Otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmış Qarabağ və Şərqi Zəngəzur ərazilərimizi qəhrəman Azərbaycan Ordusu azadlığına qovuşdurdu. O torpaqlar uğrunda canından keçmiş bütün şəhidlərin ruhu əbədi rahatlıq tapdı.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

## Azərbaycan və Özbəkistan hərbi mütəxəssislərinin işçi görüşü olub



"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün imzalanmış ikitərəfli əməkdaşlıq Planı"na əsasən Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində iki ölkənin hərbi mütəxəssisləri arasında işçi görüş keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, Özbəkistanlı qonaqlara nazirliyin Şəxsi Heyət baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabitləri tərəfindən Azərbaycan Ordusunda ideoloji işin təşkili və hərbi psixoloqların hazırlığı sahəsində görülən işlərdən danışılıb, eləcə də idarənin əsas fəaliyyət istiqamətlərinə dair brifinq təqdim edilib.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan qələbəni təmin edən əsas amillərdən birinin məhz Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək mənəvi-psixoloji hazırlığının olduğu xüsusi vurğulanıb.

Şəxsi heyətin tərbiyəvi, ideoloji, mənəvi-psixoloji işinin təşkil edilməsinin öyrənilməsi və informasiya-psixoloji əməliyyatlara qarşı mübarizə sahəsində təcrübə mübadiləsi məqsədilə keçirilən görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb və belə görüşlərin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə həmçinin nümayəndə heyətinə Azərbaycan Ordusunda ideoloji işin və mənəvi-psixoloji hazırlığın təşkili barədə ədəbiyyatlar və müxtəlif dərs vəsaitləri təqdim olunub.

## Gənc zabitlərin püşkatması keçirilib



Müdafiə Nazirliyinin müxtəlif qoşun növlərində müvafiq ixtisaslar üzrə zabit qismində xidmət etmək arzusunda olan ali təhsilli gənclər üçün təşkil olunmuş "Ehtiyat zabit hazırlığı kursu" başa çatıb.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən kursu müvəffəqiyyətlə bitirənlərə müdafiə nazirinin müvafiq əmrinə əsasən, "leytenant" hərbi rütbəsi verilib. Gənc zabitlərin hərbi hissələrə təyinatı püşkatma yolu ilə həyata keçirilib.

Yaxın günlərdə təyin olunduqları xidmət yerlərinə yola düşəcək gənc zabitlər yiyələndikləri ixtisaslar üzrə Azərbaycan Ordusunun birlik və birləşmələrində xidmət edəcəklər.

## "Açıq qapı" günü

Milli Müdafiə Universitetinin təşkilatçılığı ilə hərbi peşə seçiminə maraq göstərən və buraxılış imtahanlarında yüksək bal toplamış abituriyentlər, onların valideynləri, yaxınları, ictimaiyyət və media nümayəndələrinin iştirakı ilə Heydər Əliyev adına Hərbi İnstitutda "Açıq qapı" günü keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, əvvəlcə hərbi institutun qərargahı qarşısında ucaldılan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, qarşısına gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb.

Tədbir çərçivəsində ziyarətçilər Heydər Əliyev adına Hərbi İnstitutda kursantlar üçün yaradılan sosial-məişət və təlim-tədris şəraiti ilə yaxından tanış olmaq məqsədilə xidməti, inzibati binalara, yataqxana və yeməkxanaya, həmçinin tədris siniflərinə baş çəkiblər.

Sonra ziyarətçilər institutun ərazisindəki muzeydə Ulu Öndərin həyat və siyasi fəaliyyətini əks etdirən, eləcə də digər eksponat və fotostendlərlə tanış olublar.

Heydər Əliyev adına Hərbi İnstitutun klubunda keçirilən tədbirdə imtahanlarda yüksək ballar toplamış abituriyentlər və onların valideynləri ilə Milli Müdafiə Universitetinin rəhbər heyəti və hərbi institutun kollektivinin görüşü keçirilib.

Tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonda Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin ifasında hərbi vətənpərvərlik mahnıları, eləcə də marşlar təqdim edilib, qonaqlara nahar süfrəsi təşkil olunub.

# Məktublar: problemlər, rəylər, təkliflər...



● OVQAT

## Biz artıq Şuşadayıq!

**Uzun illər ailəmiz Bərdə şəhərindəki internat məktəbinin heç bir məişət şəraiti olmayan yardımçı binasında yaşayırdı. Bu illər ərzində bir gün də belə, doğma Şuşamızı, onun havasını, suyunu, sıldırım qayalarını unutmurduq. Həmin yerlərə dönəcəyimizə inanırdıq.**

İndi budur, arzularımız gerçəkləşib, yuxularımız çin olub. Özümüzü necə xoşbəxt hiss etdiyimizi ifadə etməkdə çətinlik çəkirəm. Şəhəri qarış-qarış gəzib hər addımdakı ağacı, çiçəyi, qarşımıza çıxan insanları bağrımıza basıb: "Biz artıq Şuşadayıq!" - deyə qışqırmaq istəyirəm.

Bəli, biz Şuşadayıq. Burada ailəmiz bütün infrastrukturu olan rahat mənzillə təmin olunub. Hesab edirəm ki, bundan sonrakı həyatımızı dövlətimizin, Prezident İlham Əliyevin bizim üçün yaratdığı cənnətdə yaşayacağıq. Qəlbim təşəkkür hissləri ilə doludur. Allah Şuşamızı o mənfurlardan azad edən, bu yolda gənc həyatlarını qurban verən şəhidlərimizə rəhmət eləsin, qazilərimizi qorusun! Allah 44 günlük Vətən müharibəsində sərkərdəlik qabiliyyəti, uzaqgörən siyasəti ilə şanlı Zəfəri xalqımıza bəxş edən Prezident İlham Əliyevi, dünyada humanizm və xeyirxahlığın simvolu kimi tanınan Birinci vitse-prezident Mehriban xanım Əliyevanı xalqımıza çox görməsin!

*Natiq QURBANOV,*
*Şuşa şəhəri*

## Sanki yenidən doğulmuşuq

**Yurd həsrəti 30 il çəkdi. Bu illər ərzində doğma ocaqlarımıza qayıtmaq həsrətiylə alışıb yanmışıq. Bu həsrəti ifadə etmək üçün günlər, aylar lazımdır.**

Allah bizim səsimizi eşitdi, dualarımız qəbul oldu. Çox şükürlər olsun bu günə. Sanki dünyaya yenidən göz açmışam. Geri dönən kimi doğmalarımızın, əzizlərimizin məzarlarını ziyarət etdik, ruhlarına dualar oxuduq. Müzəffər Ali Baş Komandan İlham Əliyevə, şanlı ordumuza minnətdarlıq hissi ilə bir ildən çoxdur ki, qoynunda dünyaya göz açdığım vətənə qayıtmışıq. Əkdiyimiz ağaclar artıq bu il bar gətirəcək. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm. Şükürlər olsun ki, əzab-əziyyətlərlə dolu qaçqınlıq həyatı arxada qaldı. İndi ömrümüzün ən gözəl günlərini yaşayırıq. Sanki dünyaya yenidən doğulmuşuq.

*Meylağa QULİYEV,*
*Zəngilan rayonunun Ağalı kənd sakini*













AZƏRBAYCAN-a cavab verirlər

## Müraciət olunub, vəsait ayrılması gözlənilir

**"Azərbaycan" qəzetinin 10 aprel 2024-cü il tarixli sayında dərc edilmiş "Yaxın yolumuz uzaq olub" sərlövhəli oxucu məktubunda Bakı şəhəri, Qaradağ rayonu ərazisində yerləşən Ümid qəsəbəsinə giriş yolunun bərpa edilməsi üçün əsaslı təmir işlərinin aparılması barədə müraciətinə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində aidiyyəti üzrə baxılmışdır.**

Məlumat üçün bildiririk ki, uzunluğu 2400 metr olan Ümid qəsəbəsinə köhnə giriş yolu agentliyin mülkiyyətində olmadığından tərəfimizdən bu yola xidmət göstərilmir.

Lakin Ümid qəsəbəsinin sakinlərinin daha öncədən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etdiyi müraciət əsasında, mütəxəssislərimiz tərəfindən onların iştirakı ilə sözügedən avtomobil yoluna baxış keçirilmişdir. Baxış zamanı sözügedən yolun əsaslı təmir işlərinin yerinə yetirilməsi üçün yolun uzunluğu, sahəsi ölçülərək layihə-smeta sənədləri tərtib edilmiş və tələb olunan maliyyə vəsaitinin ayrılması məqsədilə İqtisadiyyat Nazirliyinə müvafiq məlumat təqdim edilmişdir. Vəsait ayrılacağı təqdirdə Ümid qəsəbəsinə giriş avtomobil yolu əsaslı təmir olunaraq yenidən bərpa ediləcəkdir.

*Əvəz QOCAYEV,*
*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədr müavini*

● TOLERANTLIQ

## Bir ailə kimi yaşayırıq

**Azərbaycan çoxmədəniyyətli və çoxmillətli ölkədir. Burada əsrlər boyu ruslar, ukraynalılar, belaruslar, yəhudilər və digər millətlərin nümayəndələri azərbaycanlılarla birlikdə qardaşlıq muhitində yaşayırlar. Bunun bariz nümunəsi bizim Mozqovoylar ailəsidir.**



Babam Jakov Mozqovoy bir əsr əvvəl ailəsilə birlikdə Rusiyadan Tərtərin Zolgörən kəndinə köçüb, burada məskunlaşmışdı. Sonralar o, Tərtər şəhərinin özündə ev almış və uzun illər şəhərin yeganə fotoqrafı kimi işləmişdi. Babam öz peşəsini oğlu Viktora öyrətmişdi. Köhnə tərtərlilər atamı həm də ozamankı "Qızıl Bayraq" qəzetinin fotomüxbiri kimi xatırlayırlar. Həmin dövr rayonumuzun kəndlərində və şəhərin özündə onun tərəfindən çəkilmiş yüzlərlə əmək qabaqcılının şəkilləri rayon qəzetinin səhifələrində dərc olunub.

Ailəmiz həmişə azərbaycanlılardan isti və mehriban münasibət görüb. Azərbaycan doğma vətənimizdir. Dünyanın müxtəlif nöqtələrində müharibə ocaqları, dini və milli ayrı-seçkilik alovlandığı bir dövrdə ölkəmizdəki tolerantlıq mühitinin, multikultural dəyərlərin qorunması təqdirəlayiqdir. Bu, Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsidir. Bu, hamımızın sevimlisi Mehriban xanım Əliyevanın ayrı-ayrı xalqların nümayəndələrinə göstərdiyi humanist münasibətdən irəli gəlir.

Onu da qeyd edim ki, mən və qardaşım Aleksey Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmətimizi başa vurduqdan sonra müddətdən artıq hərbi qulluqçu kimi fəaliyyətimizi davam etdirmişik. 44 günlük Vətən müharibəsi başlayanda hər ikimiz ordudaydıq. Döyüş yoldaşlarımızla birlikdə ən qaynar nöqtələrdə vuruşmuşuq. Fəxr edirik ki, torpaqlarımızın işğaldan azad olunmasında bizim də payımız var.

Prezident İlham Əliyevin sərəncamları ilə hər ikimiz "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişik. Həmçinin Baş nazir Əli Əsədovun sərəncamı ilə "Vətən müharibəsi iştirakçısı" medalına layiq görülmüşük.

Çıxışlarının birində Prezident İlham Əliyev deyib: "Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır".

Öz ailəmizin timsalında deyə bilərəm ki, bu, həqiqətən belədir.

Bizə verdiyi yüksək dəyərə görə, Prezidentimizə təşəkkürümüzü bildiririk.

*Andrey MOZQOVOY,*
*Tərtər şəhəri*

● QÜRUR

## Doğma Şuşamızın abadlaşdırılmasında iştirak edirik

**Didərginlik həyatını Bərdə rayonunun Mirzalıbəyli kəndində keçirmişik. Düzdür, camaatla qaynayıb-qarışmışdıq. Hər kəsdən səmimi münasibət görürdük. Ancaq doğma yurd bambaşqadır. Onu heç nə əvəz edə bilməz.**

Şuşanın azad edilməsi xəbərini eşidəndə ağlımıza gələn ilk fikir bu oldu: "Biz daha qaçqın deyilik!" Bu fikrin özü bizi xoşbəxt etmək üçün kifayət idi.

İndi isə Şuşada yeni salınmış şəhərcikdə mənzillə təmin olunmuşuq. Həmçinin doğma şəhərimizin müharibənin vurduğu ağır yaralardan qurtulmasında, tikilməsində oğlumla bərabər iştirak edirəm. Ailədə 3 nəfərik. Hər səhər yuxudan oyanıb Şuşanın heç yerdə olmayan havasını udanda bu xoşbəxtliyi bizə bəxş edənlərə ürəkdən dualar edirik. Prezident İlham Əliyevə ailəmizin təşəkkürünü bildiririk. Ali Baş Komandanımız təkcə torpaqlarımızı işğaldan azad etməmişdir. Həm də keçmiş məcburi köçkünlərin bu torpaqlarda rahat yaşaması üçün indiyədək dünyada görünməyən miqyasda geniş tikinti-quruculuq işlərinin aparılmasını təmin etmişdir.





Şuşada böyük həvəslə yaşayır və işləyirik. Bu torpaq uğrunda ölümün üzünə dik baxan oğullara Allahdan rəhmət, valideynlərinə, doğmalarına səbir diləyirik. Allah qazilərimizə cansağlığı versin.

*Vahid ZEYNALOV,*
*Şuşa şəhəri*

● SEVİNC

## Bu anları heç zaman unutmayacağıq

**Ailəmiz 5 nəfərdən ibarətdir. Bu ilin may ayını biz heç zaman unutmayacağıq. Həmin gün dövlət başçısının qayğısı sayəsində Şuşa şəhərində bizə rahat mənzilin açarları təqdim olundu.**

Uzun illərin didərginlik həyatından, Bərdə şəhərindəki şəraitsiz evdən sonra Şuşadakı mənzilimizə daxil olanda, sanki yuxuda idik. Ancaq, bu, gerçək idi. Bu gerçəkliyi bizə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu bəxş edib.

Prezidentimizə təşəkkür edir, şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə cansağlığı arzulayırıq! Azərbaycan xalqı, o cümlədən şuşalılar tariximizin bu şanlı səhifəsini heç zaman unutmayacaqlar. Azərbaycan əsgərinin qəhrəmanlığı dildən-dilə, nəsildən-nəslə ötürülərək əbədi yaşayacaq.

*Nəsimi MƏHƏRRƏMOV,*
*Şuşa şəhəri*

● RAZILIQ

## Görüşdə etdiyim müraciətdən sonra problemim həll edildi

**Prezidentin tapşırığına əsasən rayon icra hakimiyyəti başçılarının kənd və qəsəbələrdə sakinlərlə keçirdiyi görüşlərin səmərəli olması barədə hamının məlumatı var. Bizim Goranboy rayonunda da keçirilən belə görüşlər öz müsbət nəticəsini verir.**



Bu yaxınlarda rayon icra hakimiyyətinin başçısı növbəti dəfə kəndimizə gəldi və kənd sakinləri ilə işgüzar söhbət etdi. Mən başçıya məlumat verdim ki, kəndimizə qaz xətti çəkilərkən, borular həyətimin giriş qapısının qarşısından aparıldı. Bu da həyətə giriş-çıxışı çətinləşdirdi. Xahiş etdim ki, bu çətinliyin aradan qaldırılmasında mənə kömək edilsin. Müraciətim qeydə alındı və çox çəkmədi ki, problem aradan qaldırıldı. İndi maneəsiz maşınımı həyətə salıb çıxara bilirəm.

*Nicat BABAYEV,*
*Goranboy rayonunun Nərimanlı kənd sakini*

● MƏMNUNLUQ

## Bu il əkin suyumuz boldur

**Keçən illərlə müqayisədə əkin suyumuz boldur. Hər bir torpaq mülkiyyətçisi, fermer kanallardan su götürüb əkin sahələrini suvara bilir. Taxılın, yoncalıqların suvarılması, demək olar ki, başa çatmışdır. Vaxtında suvarıldığı üçün zəmilərdən bol məhsul gözlənilir.**

Tel-tel olan taxılın hündürlüyü qurşağa çatır. Aprel ayının sonuna kimi boruya qalxan kollar sünbül bağlayacaq. Yonca sahələri də taxıl kimi ləpələnir. Pambıq əkiləcək sahələrdə isə yaz tarla işləri aparılır. Hər kəs qədərincə su götürərək suvarma işini həyata keçirə bilir.

Mən özüm bir neçə gündən sonra çiyid səpininə başlayacağam. Bu, keçən ildəkindən təxminən 20 gün tez olacaq. Aydın məsələdir ki, bitki vaxtında əkiləndə məhsul da vaxtında yetişir. Payızda yağışlar düşməmiş pambığı yığıb qurtara bilirsən. Belə olduqda məhsuldarlıq da yüksək olur, itkiyə yol verilmir.

"Su bolluqdur", - deyiblər. Bu il isə su boldur, həm də əkin üçün çox yararlıdır. Keçən il bu vaxtlar Kür çayı yosunlu halda axırdı, eyni zamanda Mingəçevir su anbarından buraxıldığından dupduru olmaqla yanaşı, bir az da şor idi.

Bu il təsərrüfat ilidir. Yanvarda bir neçə dəfə qar yağdı, fevralda, martda yağışlar düşdü. Kənd təsərrüfatı da təbiətlə əlaqədardır. Əminəm ki, bu il həm taxıl biçinində, həm də payızda - pambıq yığımında, eləcə də heyvandarlıqda fermerlərin üzü güləcək.

*İmaməddin DADAŞOV,*
*Neftçala rayonu, Kürqarabucaq kənd sakini, fermer*



● ABADLIQ

## Yolsuzluqdan xilas olduq

**Sumqayıtda doğulub böyümüşəm. Şəhərə yaxşı bələdəm. Bir müddət əvvəl, səhhətimdə yaranan problemə görə həyət evinə - "Xəzər bağları" yaşayış massivindəki Murovdağ küçəsinə köçdük.**



Əvvəllər sakinlərin sayı az olduğundan küçədən keçib getmək çətin deyildi. Amma yeni ailələr köçdükdən sonra yollarda problemlər yarandı. Kommunikasiya xətlərinin çəkilişi ilə yollarımız dağıldı və yararsız hala düşdü. Bu çətinliyə dözmək olardı, bircə təcili tibbi yardım maşınlarının darısqal və yararsız küçədə çətinliklə üzləşdiklərindən bəzən çağırışdan imtina etmələrinə laqeyd qala bilmirdik. Çünki söhbət insan həyatından gedir. Yayda yenə yollar quru olduğundan keçinmək olurdu. Yağışlı havalarda isə çox vaxt yolsuzluq ucbatından vacib iş dalınca belə getmək mümkün deyildi. Uşaqların məktəbə getməsində çətinlik vardı. Nə isə şəhər rəhbərliyinə müraciət etməkdən savayı əlacımız qalmadı.

Şükürlər olsun ki, bizim səsimizə səs verildi. Küçəmizdə təmir işlərinə başlanıldı və az bir zaman kəsiyində yolumuz asfaltlandı. Qəzetiniz vasitəsilə bizi yolsuzluqdan xilas edən əlaqədar təşkilatlara minnətdarlığımızı bildiririk.

*Məhərrəm ƏKBƏROV,*
*Sumqayıt, "Xəzər bağları" yaşayış massivinin sakini*

● MİNNƏTDARLIQ

## Subartezian quyusu təmir olundu

**Təsərrüfat işlərinin qızğın çağında suyu ilə pay torpaqlarımızı suvardığımız subartezian quyusu sıradan çıxmışdı. Bu vəziyyət kənd sakinlərini çox narahat edirdi. Çünki belə getsə, cari ildə torpaqlarımızdan məhsul götürə bilməyəcəydik. Əlimiz boşda qalacaqdı.**

Rayon rəhbərinə müraciət olundu. Tezliklə subartezian quyusunun yanmış nasosu dəyişdirildi, 153 metr yeni kabel verildi və subartezian quyusundan yenidən sahələrimizə dirilik suyu axdı.

Onu da bildirim ki, kəndimizə yeni internet xətti çəkilir. Bunun üçün dirəklər və avadanlıqlar gətirilib. İndiyəcən internetdən yalnız bəzi ailələr istifadə edə bilirdilər. Yeni xətt çəkiləndən sonra isə internet hər bir ailədə olacaq. Kənd sakinləri bundan çox məmnundurlar. Bütün bu xeyirxah işlərdə əməyi keçən hər kəsə minnətdarlığımızı bildiririk.

*Rəqiyyə İSMAYILOVA,*
*Tərtər rayonunun Mamırlı kəndi, şəhid anası*

# Nəşi 32 ildən sonra tapılan şəhid Yusif Ağayev dəfn edilib





Bu yaxınlarda nəşinin qalıqları tapılan şəhidlərdən biri də Yusif Balasəf oğlu Ağayevdir.

AZƏRTAC xəbər verir ki, mayın 15-də şəhidlə vida mərasimi keçirildikdən sonra nəşi Bakının Yasamal rayonunda yerləşən İkinci Şəhidlər xiyabanına gətirilib.

Dəfn mərasimində şəhər sakinləri, şəhidin ailə üzvləri, qazilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhid Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında və yaylım atəşinin müşayiəti ilə son mənzilə yola salınıb. Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları səsləndirilib, şəhidin ruhuna dualar oxunub. Onun tabutuna bükülmüş Azərbaycanın üçrəngli Dövlət Bayrağı oğlu Vüqar Ağayevə təqdim edilib. Şəhidin qardaşı Asif Ağayev jurnalistlərə müsahibəsində deyib: "1991-ci ildə qardaşım Yusif ordu sıralarına getmiş və Malıbəyli, Nəbilər, Şuşanın kəndləri uğrunda gedən döyüşlərdə mərdlik göstərmişdir. 1992-ci il yanvarın 23-də onunla bərabər Azərbaycanın igid oğulları vertolyotla Şuşaya uçmuş və orada 2-3 gün təlim keçdikdən sonra yanvarın 25-dən 26-na keçən gecə Daşaltı kəndinin müdafiəsində iştirak etmişdilər. Qardaşım Yusif 1992-ci il yanvarın 26-da qəhrəmancasına şəhid oldu. O, Daşaltı uğrunda gedən döyüşlərdə itkin düşmüşdü. Qardaşımın nəşinin tapılması bizi 32 illik həsrətdən qurtardı. Allah bütün şəhidlərimizə rəhmət etsin. Qazilərimizə cansağlığı, bütün Azərbaycan əsgərlərinə hərbi xidmətlərində uğurlar arzulayıram".

Qeyd edək ki, Yusif Ağayev 1959-cu il sentyabrın 12-də Şamaxı rayonunun Bağırlı kəndində anadan olub. 1991-ci ildə hərbi xidmətə yollanan və bir sıra döyüşlərə qatılan Yusif Ağayev 1992-ci il yanvarın 26-da şəhid olub.

# Uğursuz erməni keşişin hədəfi indi də parlamentdir

## Keçmiş hərbi xunta din xadimlərindən vasitə kimi istifadə etməyə başlayıb

Hayastanda keçmiş hərbi xunta təmsilçilərinin təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən etiraz aksiyaları davam edir.



Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya prosesinin bu ölkənin müəyyən bir qismi tərəfindən etirazla qarşılanması, bununla yanaşı, aksiyalarda daha çox erməni din adamlarının adının hallanması əslində, iki ölkə arasında aparılan danışıqları hərbi-siyasi, diplomatik kontekstdən çıxarıb dini aspektlərə yönəltmək cəhdidir.

Göründüyü kimi xalq arasında nüfuzunu itirən keçmiş hərbi xunta təmsilçilərinin din xadimlərindən vasitə kimi istifadə etmələri açıq-aydın ortadadır. Burada əsas məqam da bu yürüşə erməni keşişin başçılıq etməsidir.

Hayastan hakimiyyəti bəyan edib ki, sərhədlərin delimitasiyası ölkənin təhlükəsizliyinin təmin edilməsinin yeganə çıxış yoludur. Buna qarşı çıxan erməni radikallar isə hazırda Ermənistanı növbəti dağıdıcı müharibə təhlükəsi ilə üzləşdirməyə cəhd göstərirlər. Çünki sərhədlərin delimitasiyasından imtina məhz növbəti müharibəyə legitim səbəblər yaratmaq deməkdir. Onlar kütləvi etiraz aksiyaları ilə Paşinyan hakimiyyətinə təzyiq göstərərək, sərhədlərin delimitasiya prosesinin dayandırılmasını tələb ediblər. Halbuki, indiki situasiyada kütləvi etiraz aksiyaları heç nəyi dəyişə bilməz. Erməni radikallar hələ ötən əsrin 90-cı illərində olduğu kimi, kütləvi etiraz aksiyaları ilə öz hədəflərinə çata biləcəklərinə ümid bəsləyirlər.

"Hraparak" nəşri yazıb ki, siyasi meydan diskomfort vəziyyətdədir, bu ana qədər Erməni Apostol Kilsəsinin Tavuş Yeparxiyasının primatı, arxiyepiskop Baqrat Srbazan (Qalstanyan) müxtəlif siyasi qüvvələrə öz dəstək və təkliflərini təqdim etməyə çalışsa da, öz oyununu oynayır. Nəşr qeyd edib ki, o, sadəcə dinləyir və hərəkatın təşəbbüskarları ilə müzakirə edəcəyi məsələləri çatdırır: "Keşiş "Vətən naminə Tavuş" fəalı ilə yanaşı, Abraham Qasparyana, Avetik Çalabyana da müəyyən yer verir, titul sahibi müxalifətçiləri kölgədə saxlayır. Yeri gəlmişkən, onlar da zərər verməmək prinsipi ilə müdaxilə etməməyə çalışırlar. Məsələn, Ermənistanın ikinci və üçüncü prezidentləri prosesə müdaxilə etməməyə çalışırlar. Yeri gəlmişkən, Serj Sarkisyan bir həftədən artıqdır ki, ölkədə deyil, Almaniyadadır, sabah qayıdacaq".

Mayın 21-dən Ermənistan parlamentində növbəti sessiya başlayacaq. Hayastan parlamentinin hakim "Vətəndaş Müqaviləsi" fraksiyasının deputatları sessiyalar başlamadan öncə hərəkatın sönməsi üçün dua edirlər. "4rd.am" nəşri yazır ki, hakim fraksiyada narahatdırlar ki, keşiş həmin günlərdə xalqı parlament binasını mühasirəyə almağa çağıra bilər və əgər böyük izdihamı təmin etmək mümkün olsa, o zaman xalqın tələbinə qarşı çıxmaq onlar üçün çətin olacaq: "Yeri gəlmişkən, ötən gün "Hayastan" fraksiyasının deputatları Artur Sarkisyan və Qarnik Danielyan keşişi parlamentə dəvət etmək qərarına gəliblər və gəliş sənədini verəndə, parlamentdə olan hakim fraksiya deputatları arasında əsl çaşqınlıq və ajiotaj başlayıb. Fikirləşiblər ki, keşiş binanı gəzəcək, onunla qarşılaşmamaq üçün nə etmək lazımdır?".

Göründüyü kimi, revanşistlər kilsənin imkanlarından istifadə etməyə çalışırlar. Nəzərə alaq ki, Ermənistan kilsəsi kifayət qədər nüfuza və gücə sahibdir. Bu, həm də o anlama gəlir ki, keçmiş hərbi xunta və onların xarici havadarları sonuncu kartdan - kilsə faktorundan yararlanmaq istəyirlər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# *Bolqarıstan mətbuatı:* "İşğal nəticəsində Azərbaycana 50 milyard dollardan çox ziyan vurulub"

Azərbaycanın Beynəlxalq Ədalət Məhkəməsində Ermənistana qarşı qaldırdığı iddiaların hüquqi əsasları Bolqarıstan mətbuatında geniş işıqlandırılıb.




Ölkəmizin Bolqarıstandakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məlumatlarda Azərbaycanın BMT-nin irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasının normalarının Ermənistan tərəfindən kobud şəkildə pozulduğu ciddi şəkildə əsaslandırılır. Ermənistanın 30 illik hərbi işğalı zamanı bütün mülki binaların, xəstəxanaların, məktəblərin, mədəniyyət və tarixi abidələrin, dini abidə və qəbiristanlıqların tamamilə dağıdıldığı və Azərbaycana 50 milyard ABŞ dollarından artıq ziyan vurulduğu oxucuların diqqətinə çatdırılıb.

Bolqarıstan mətbuatında, həmçinin Ermənistan tərəfindən işğal altında olmuş torpaqlarda Azərbaycan toponim adlarının dəyişdirilməsi yolu ilə onların etnik mənsubiyyətinə dair izlərin məhvi siyasətinin həyata keçirildiyi qeyd olunub.

Eyni zamanda işğal dövründə Ermənistanın Azərbaycanın təbii sərvətlərini qeyri-qanuni istismar etdiyi və ətraf mühitə ciddi ziyan vurduğu diqqətə çatdırılır. Bundan əlavə, Ermənistanın azərbaycanlılara qarşı irqçi təbliğat apararaq etnik ədavəti alovlandırması və təhsil müəssisələrində, habelə ictimai və sosial mediada anti-Azərbaycan nifaq ritorikasını təşviq etdiyi vurğulanır.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## "Qaradağ Maşınqayırma" ASC-nin səhmdarlarının nəzərinə

28 iyun 2024-cü il tarixində saat 11:00-da "Qaradağ Maşınqayırma" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir. Yığıncaq cəmiyyətin inzibati binasında keçiriləcək. Yığıncağın gündəliyi aşağıdakı məsələlərdən ibarətdir:

**1. 2023-cü ilin illik hesabat məruzəsi.**
**2. Qarşıda duran cari məsələlər.**
**3. Cəmiyyətin nizamnaməsinin, Müşahidə şurasının, İdarə heyətinin və Təftiş komissiyasının tərkibinin təsdiqi.**

***Müdiriyyət***

# Qida təhlükəsizliyinə laqeyd yanaşmaq olmaz

Orqanizmin inkişafında, hüceyrələrin bərpasında, sinir sisteminin möhkəmlənməsində mühüm rol oynayan qida insan sağlamlığına birbaşa təsir göstərir. Sanitar-gigiyenik qaydalara əməl olunmadan istehsal və istehlak edilən məhsullar sağlamlıq üçün birbaşa təhlükə yaradır.



Yaz-yay aylarında havalar isti olduğuna görə bakteriyaların yayılması üçün daha əlverişli şərait yaranır. Mikrobioloji çirklənmə nəticəsində məhsullar yararsız hala düşür və qida zəhərlənmələri baş verir. Düzgün mühafizə edilmədən saxlanılan məhsulların uzun müddət soyuducudan kənar qalması isə qida zəhərlənməsinə səbəb olan əsas amildir. Ona görə də tez xarab olan və yararlılıq müddəti az olan qida məhsullarına daha diqqətlə yanaşmaq lazımdır.

### Riskli qidaları 3 saatdan artıq otaq temperaturunda saxlamaq olmaz

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən qida məsələləri üzrə mütəxəssis Ağa Salamov deyib ki, isti havalarda riskli qidaların saxlanılmasına xüsusi diqqət yetirilməlidir: "İstər ev şəraitində, istərsə də market, restoran, kafe kimi ictimai-iaşə obyektlərində balıq, toyuq, ət və ət məhsulları, süd və süd məhsullarının saxlanma dərəcələri olduqca önəmlidir. Riskli qidalar mikrobioloji çirklənməyə meyilli olduğu üçün onları 3 saatdan artıq otaq temperaturunda saxlamaq olmaz. Ona görə də kəsim yerlərində ət kəsildikdən sonra birbaşa soyuducuya qoyulmalı, istehlakçıya soyuducudan təqdim olunmalıdır".

A.Salamovun sözlərinə görə, riskli məhsulları soyuducularda müsbət 4-5 dərəcəyədək maksimum 72 saat müddətində saxlamaq olar: "Ondan sonra bu qidalar mikrobioloji çirklənməyə məruz qalır, yeyilməsi təhlükəli hesab olunur. Əgər ərzaqlar daha uzun müddət mühafizə olunacaqsa, dərin dondurucuda mənfi 18 dərəcədə saxlanılmalıdır. Lakin nəzərə almaq lazımdır ki, istər dərin dondurucuda, istərsə də soyuducuda fərqli növ ət məhsulları, yəni toyuq, balıq və qırmızı ət bir-biri ilə təmas etməməlidir. Belə ki, çarpaz çirklənmə nəticəsində istehlakçıların zəhərlənməsi baş verə bilər".

Qida mütəxəssisi qeyd edib ki, alış-veriş edərkən diqqətli olmaq lazımdır. Şirə salmamış, rəngini, qoxusunu dəyişməmiş ət, qarnı şişməmiş balıq alınmalıdır. Təzə balığın pulları dartdıqda çıxmamalıdır. Onları soyuducuda, buzun üstündə, suyun içində almaq tövsiyə olunur. Piştaxtada, açıq havada və günəş şüaları altında olan ət məhsulları almaq məsləhət görülmür.

### İaşə obyektləri qidasaxlama avadanlıqlarına xüsusi diqqət yetirməlidirlər

Konservləşdirilmiş məhsullar, qatıq, mayonez, smetan kimi ərzaq məhsulları da riskli qidalar qrupuna daxildir. A.Salamovun sözlərinə görə, konservləşdirilmiş qidaların qablaşdırılmasında şiş, pas varsa, onları qətiyyən almaq olmaz: "Bu o deməkdir ki, məhsulun kimyəvi tərkibi dəyişib. Konservləşdirilmiş ərzaqlar zavod görünüşünü qoruyub saxlamalıdır. Əks halda, qida zəhərlənməsi qaçınılmaz olacaq. Dondurma alarkən ona diqqət edilməlidir. Bəzən dondurmalar soyuq qida zəncirində kobud səhvə yol verilərək əriyir. Bir dəfə əriyib yenidən donduqda isə məhsulun tərkibində bağırsaq çöpləri əmələ gəlir. Dondurmaları alarkən onun qablaşdırılmasının deformasiya olub-olmamasına və toxunanda yumşaq olmasına nəzər yetirmək lazımdır.

İsti havalarda mayonezli məhsullardan uzaq durmaq lazım olduğunu qeyd edən mütəxəssis bildirib ki, çox vaxt insanlar mayonezli salatlar edib dənizə üz tuturlar: "Yumurta, mayonezli salatlar, evdə hazırlanıb aparılan ətlər yolda saatlarla tıxaclarda qalmaq səbəbindən keyfiyyətini itirir. Yaxşı olar ki, yay aylarında düzgün şərtlər altında mühafizə edilmiş qidalara üstünlük verilsin, məhsullar 2-3 saat ərzində yeyilsin. Daha yaxşı olar ki, mayonez əvəzinə zeytun yağı ilə hazırlanmış salatlara üstünlük verilsin".

A.Salamov vurğulayıb ki, ölkəmizdə keçiriləcək COP29 beynəlxalq konfransı ilə əlaqədar 80 mindən çox qonağın gələcəyi gözlənilir: "Bu baxımdan ictimai iaşə obyektləri bu kimi hallara xüsusi diqqət yetirməlidirlər. Müəssisələr yaxşı avadanlıqlarla, soyuducularla təchiz olunmalıdırlar. Qəbul etdikləri riskli məhsulların mənşəyi, haradan alındığı məlum olmalı, baytar nəzarətindən keçdiyi möhür və uyğunluq sertifikatı ilə təsdiqlənməlidir".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Ayaz İmaməliyevə dayısı

**NEYMAN HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İxtiyar Hüseynli Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Ayaz İmaməliyevə dayısı

**NEYMAN HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4353
Sifariş 1063

Qiyməti 60 qəpik